# BAŞ TUTMAYAN GÜRCÜSTAN SSENARİSİ



"Gürcü Arzusu" partiyası parlament seçkilərində qalib gəlməklə bir daha göstərdi ki, Qərbin cəhdləri baş tutmayacaq.

**Qərbdə seçkinin nəticələrini özlərinin məğlubiyyəti kimi qəbul edirlər. Elə baş nazir Viktor Orbanla birgə Tbilisiyə gələn Macarıstanın xarici işlər naziri Peter Siyarto də bəyan edib ki, Gürcüstandakı parlament seçkilərinin qalibi Brüssel olmayıb.**

**Müxalifət partiyaları Gürcüstanın Avropa İttifaqına üzvlüklə bağlı olmayan məsələlərdə nə istədiklərini, vətəndaşlara nə təklif etdiklərini də aydın şəkildə formalaşdıra bilmədilər. Hakim "Gürcü Arzusu" partiyası isə sülh və Ukraynada müharibə mövzularında ortaya konkret mövqe qoydu.**

SƏHİFƏ 5-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

2 NOYABR ŞƏNBƏ 2024 № 42 (4193) Qiyməti - 40 qəpik www.kaspi.az



## "28 MAY"IN QARŞISI YENİ GÖRKƏMDƏ

Son illərdə ölkəmizin hər yerində abadlıq-quruculuq işləri geniş vüsət alıb. Azərbaycanın 2030-cu ilə qədər təmiz ətraf mühit və yaşıl artım ölkəsinə çevrilməsi sosial-iqtisadi inkişafa dair milli prioritetlər sırasındadır.

SƏHİFƏ 2-də



## 35 YAŞIN GƏTİRDİYİ PROBLEMLƏR

Hazırda əmək bazarında 35-40 yaşdan sonra iş tapmağın çətin olduğuna dair bir reallıq var. Mövcud vəziyyətin səbəbləri, tənzimlənməsi ilə bağlı ekspertlər arasında fikir ayrılığı mövcuddur.

SƏHİFƏ 6-da

### AZƏRBAYCAN COP29 İMTAHANINDAN DA UĞURLA ÇIXACAQ

# DÜNYANIN ÜRƏYİ BAKIDA DÖYÜNƏCƏK




COP29-a hazırlıq artıq son mərhələdədir. Bakı platforması iştirakçılara aparılacaq müzakirələrin planetimizin gələcəyi naminə müsbət qərarlarla yekunlaşması üçün lazımi şərait yaradacaq.

**QISA MÜDDƏTDƏ REKORD HAZIRLIQ**

Cəmi doqquz ay ərzində dünyanın ən böyük tədbirinə ev sahibliyi üçün hazırlıq müddəti olan Azərbaycanın bu işin öhdəsindən belə qısa müddətdə layiqincə gəldiyi yaxşı mənada hər kəsi təəccübləndirir. Rəsmi məlumatlardan da görünür ki, COP29-a hazırlıq artıq son mərhələdədir.

**YEKDİLLİKLƏ VERİLƏN QƏRAR**

COP29-un Azərbaycanda keçirilməsi təşəbbüsü beynəlxalq birlik tərəfindən yekdilliklə qəbul edilən qərar əsasında reallaşır. Bu, keçən müddət ərzində dünyanın əksər ölkələrinin Bakıya siyasi dəstək bəyanatlarında da özünü göstərir.

SƏHİFƏ 3-də



## DƏRMAN VASİTƏLƏRİ UCUZLAŞACAQ?

Nadir xəstəliklərin müalicəsində istifadə olunan dərman vasitələri tək Azərbaycanda deyil, istehsalçı ölkədə də çox bahadır. Bu dərmanların ƏDV-dən azad olunması, ən azından 18 faiz ucuzlaşma deməkdir.

SƏHİFƏ 11-də




## UCUZDURSA, DEMƏLİ, KEYFİYYƏTSİZDİR

Bazarlarda spirt bahadırsa, hər il aksiz vergisi artırılırsa, arağın ucuz satılması mümkün deyil. Ekspertlər hesab edirlər ki, 10-12 manatdan ucuz satılan araqlar keyfiyyətsizdirlər.

SƏHİFƏ 12-də



## MAKSİMUM DİQQƏT TƏLƏB EDƏN İSLAHAT

Ekspertlər hesab edirlər ki, ali təhsil müəssisələrində ixtisaslarla bağlı islahatlar kor-korana aparılmamalıdır. Bu istiqamətdə ciddi müzakirə, təhlil və araşdırmalara ehtiyac var.

SƏHİFƏ 13-də

### "Mən getməsəm, bəs kim gedəcək?!"



# VƏTƏN ÜÇÜN TƏHSİLİNİ İKİ DƏFƏ YARIMÇIQ QOYDU

Vətən uğrunda şəhid olan qəhrəmanlarımızdan biri də Rzayev Elxan Ariz oğludur. Rzayevlər ailəsinin tək oğul övladı Elxan 2020-ci il 29 sentyabr tarixində Vətəni müdafiə etmək üçün döyüşlərə yollanır. Müharibənin bitməyinə cəmi bir həftə qalmış Qubadlı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olur. Elxan Rzayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

SƏHİFƏ 8-9-da



## "SEVGİSİZ QALMAQDAN QORXURAM"

Murad İsmayıl: "Düşünürəm ki, incəsənətlə məşğul olmasaydım, hansısa məşhur restoranlardan biri mənim olardı. Çünki yemək bişirmək və restoran işinə böyük marağım var".

SƏHİFƏ 15-də



COP29-u "son şans" kimi görənlər

SƏHİFƏ 4-də



İllik inflyasiya proqnozuna düzəliş edilib

SƏHİFƏ 10-da



Kombimizin ömrünü uzatmaq istəyiriksə...

SƏHİFƏ 14-də



Ehtiyat hissəsi tapmamaq qorxusu

SƏHİFƏ 7-də



Təvazökar, amma güclü lider

SƏHİFƏ 16-da



# Prezident İspaniya səfirinin etimadnaməsini qəbul edib

Prezident İlham Əliyev noyabrın 1-də İspaniya Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kristina Latore Sançonun etimadnaməsini qəbul edib.

Dövlət başçısı Valensiya regionunda baş vermiş güclü daşqınlar nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı bir daha başsağlığı verib və bununla əlaqədar İspaniya Hökumətinin Sədri Pedro Sançezə məktub göndərdiyini qeyd edib.

Səfir başsağlığına və məktuba görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

O, Azərbaycanın COP29-a ev sahibliyi etməsinin və sədrliyinin, həmçinin ölkəmizin iqlim dəyişmələri prosesindəki mübarizəyə töhfə vermək əzminin yüksək qiymətləndirildiyini vurğulayıb, bu tədbirin Azərbaycanda uğurla keçiriləcəyinə əminliyini ifadə edib.

Kristina Latore Sanço bildirib ki, İspaniya Hökumətinin Sədri COP-un təşkilində Azərbaycan Prezidentinin şəxsi təşəbbüsünü yüksək qiymətləndirir. Səfir iqlim dəyişmələri ilə bağlı mübarizə işində dövlətimizin başçısının fəaliyyətini qeyd edərək, ümumilikdə COP29 kimi mühüm tədbirin təşkilinə görə Azərbaycan tərəfinə və şəxsən dövlətimizin başçısına İspaniya Hökuməti adından minnətdarlığını bildirib.

Prezident İlham Əliyev COP29-un keçirilməsi ilə bağlı hazırlıq işlərinə bir ildən də az vaxtın olmasına baxmayaraq bütün işlərin yüksək səviyyədə təşkil edilməsi üçün Azərbaycan tərəfinin böyük səy göstərdiyini deyib.

Dövlət başçısı İspaniya Hökumətinin Sədrinin COP29-da iştirakından məmnunluğunu bildirərək qeyd edib ki, bu, İspaniya tərəfindən hökumət sədri səviyyəsində ölkəmizə ilk səfər olacaq.

Səfər çərçivəsində keçiriləcək görüşlərin ikitərəfli münasibətlərimizin inkişafına yeni təkan verəcəyinə ümidvarlıq ifadə olunub.

Azərbaycanın füsunkar ölkə və Bakının çox gözəl şəhər olduğunu deyən səfir ölkəmizdən xoş təəssürat aldığını bildirib.

Görüşdə Azərbaycanla İspaniya arasında əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi, bu xüsusda aidiyyəti dövlət qurumlarının iştirakı ilə işçi qrupunun yaradılması məsələsi qeyd olunub. Ölkələrimiz arasında iqtisadiyyat, ticarət, turizm, energetika və digər sahələrdə əməkdaşlıq üçün geniş perspektivlərin olduğu vurğulanıb. Orta Dəhlizin İspaniya şirkətlərinin region ölkələri ilə əlaqələrinin inkişafı üçün əlverişli perspektivlər açdığı qeyd edilib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.



# "28 MAY" STANSİYASININ QARŞISI YENİ GÖRKƏMDƏ

**Son illərdə ölkəmizin hər yerində, o cümlədən paytaxt Bakıda abadlıq-quruculuq işləri geniş vüsət alıb. Azərbaycanın 2030-cu ilə qədər təmiz ətraf mühit və yaşıl artım ölkəsinə çevrilməsi sosial-iqtisadi inkişafa dair milli prioritetlər sırasındadır.**

Prezident İlham Əliyev noyabrın 1-də Bakı Dəmiryol Vağzalının və metronun "28 May" stansiyasının qarşısındakı ərazidə aparılmış abadlıq və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlət başçısına paytaxtımızda Puşkin küçəsinin Azadlıq prospekti ilə birləşməsindən Dilarə Əliyeva küçəsi ilə kəsişməsinədək olan hissəsində - Bakı Dəmiryol Vağzalı və metronun "28 May" stansiyasının qarşısındakı ərazidə görülmüş işlər barədə məlumat verib.



## İKİ FƏVVARƏ, İKİ DAYANACAQ İNŞA EDİLİB

Bildirilib ki, ümumi sahəsi 3,5 hektar olan ərazidə minik avtomobillərinin hərəkəti ləğv edilərək, müasir tələblərə cavab verən avtobus, piyada və velosiped zolaqları yaradılıb. Köhnə döşəmə örtükləri ləğv edilərək, qranit bordürlər düzülüb və təqribən 22 min kvadratmetr qranit döşəmə örtüyü salınıb. Ərazidə ümumi sahəsi təqribən 2300 kvadratmetr olan yaşıllıq yaradılıb, İtaliyadan gətirilmiş 200-dən çox ağac, 15 mindən çox kol əkilib, işıqlandırma işləri aparılıb, müasir oturacaqlar quraşdırılıb. Həmçinin müasir tikinti norma və qaydalarına cavab verən 2 fəvvarə, 2 dayanacaq inşa edilib, elektrik avtobusları üçün 4 enerjidoldurma məntəqəsi quraşdırılıb.

## TƏMİZ ƏTRAF MÜHİT VƏ YAŞIL ARTIM ÖLKƏSİ

Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində ölkəmizin hər yerində, o cümlədən paytaxt Bakıda abadlıq-quruculuq işləri geniş vüsət alıb.

Azərbaycanın 2030-cu ilə qədər təmiz ətraf mühit və yaşıl artım ölkəsinə çevrilməsi sosial-iqtisadi inkişafa dair milli prioritetlər sırasındadır. Bu xüsusda görülən işlər həm paytaxt sakinlərinin və Bakıya gələn



çoxsaylı turistlərin istirahəti üçün müvafiq şəraitin yaradılması, həm də şəhərin ekoloji durumunun yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlı olduğunu bir daha nümayiş etdirir. COP29-a ev sahibliyi edəcək ölkəmizdə elan olunan "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində görülən abadlıq və yenidənqurma işləri də ətraf mühitin sağlamlaşdırılmasına mühüm töhfə verir, eyni zamanda, Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirir.

# DÜNYANIN ÜRƏYİ BAKIDA DÖYÜNƏCƏK




**COP29-a hazırlıq artıq son mərhələdədir. Bakı platforması iştirakçılara aparılacaq müzakirələrin planetimizin gələcəyi naminə müsbət qərarlarla yekunlaşması üçün lazımi şərait yaradacaq.**



**AZAD ƏLİYEV**
azad.eliyev@kaspi.az

COP29-a sayılı günlər qalıb. Dünyanın diqqəti iki həftəyə yaxın Bakıya yönələcək. Azərbaycan adı aparıcı beynəlxalq media orqanlarında trendə çevriləcək. Təbii ki, hazırda bəşəriyyət qarşısında ən ciddi problem kimi dayanan iqlim dəyişmələri, qlobal istiləşməyə qarşı mübarizə ilə bağlı dövlət və hökumət başçıları, dünyanın aparıcı beynəlxalq qurumlarının iştirakı ilə təşkil olunacaq müzakirələr meydanı olan COP29 həm də Azərbaycanın artan nüfuzunun və siyasi çəkisinin göstəricisidir.

### BAKI BU İMTAHANDAN DA UĞURLA ÇIXACAQ

Ölkəmizin bundan əvvəl BMT-dən sonra dünyanın ən böyük beynəlxalq təşkilatı olan Qoşulmama Hərəkatına ən çətin dövrdə rəhbərlik etməsi, əldə olunan nəticələr çox da uzaq keçmişə aid deyil. Pandemiyanın tüğyan etdiyi zamanlarda Bakının təşkilatın sədri olaraq irəli sürdüyü təşəbbüslərin, gerçəkləşdirdiyi layihələrin beynəlxalq birlik tərəfindən yekdil olaraq dəstəklənməsi COVID təhlükəsinin aradan qaldırılmasında mühüm rol oynadı. İndi isə növbədə daha ciddi problem olan iqlim kataklizmləri dayanır. Beynəlxalq ekspertlər Bakının bu imtahandan da uğurla çıxacağı qənaətindədirlər.

### DİPLOMATİK SƏYLƏR

Cəmi doqquz ay ərzində dünyanın ən böyük tədbirinə ev sahibliyi üçün hazırlıq müddəti olan Azərbaycanın bu işin öhdəsindən belə qısa müddətdə layiqincə gəldiyi yaxşı mənada hər kəsi təəccübləndirir. Rəsmi məlumatlardan da görünür ki, COP29-a hazırlıq artıq son mərhələdədir. Bu müzakirələrin planetimizin gələcəyi üçün müsbət qərarlarla yekunlaşması ilə bağlı Bakı platforması iştirakçılara hər bir şəraiti yaradacaq. Bu, tək təşkilati baxımdan deyil. Həm də vasitəçilik, mövqelərin uzlaşdırılması, yekun qərarlarda fikir ayrılıqlarının ortadan qaldırılması prosesinə də aiddir. Sirr deyil ki, ölkə başçısının tapşırığı əsasında COP29 rəhbərliyi hazırlıq müddətində dünyanın bir çox ölkələrinin rəhbərlikləri, beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlər keçirərək iqlim konfransının uğurlu sonluqla yekunlaşması üçün çox ciddi, gərgin diplomatik və siyasi danışıqlar aparıb. Bakının bu təşəbbüslərinin ilkin dəyərləndirmələri də artıq özünü müsbət istiqamətdə büruzə verməkdədir.

## BEYNƏLXALQ DƏSTƏK

Xatırladaq ki, COP29-un Azərbaycanda keçirilməsi təşəbbüsü beynəlxalq birlik tərəfindən yekdilliklə qəbul edilən qərar əsasında reallaşır. Bu, keçən müddət ərzində dünyanın əksər ölkələrinin Bakıya siyasi dəstək bəyanatlarında da özünü göstərir.

Məsələn, ABŞ Prezidenti Cozef Bayden azərbaycanlı həmkarı İlham Əliyevə göndərdiyi məktubda bildirir: “Biz noyabrda Bakıda keçiriləcək COP29 çərçivəsində iqlimlə bağlı birgə məqsədlərimizin irəliləməsini arzulayırıq və tədbirin uğurla keçirilməsində Azərbaycana dəstək verməyə hazırıq”.

Rusiya, Çin, Braziliya kimi ölkələrin ali rəhbərləri də COP29-un Bakıda keçirilməsini dəstəkləyirlər. Verilən bəyanatlarda COP29-un Bakıda uğurla keçirilməsinə sadiqlik ifadə olunur.




**Foto:** Ramil Yunus - Global Photostock

### COP29-A İCTİMAİ-SİYASİ BAXIŞ

Dünyanın müxtəlif ölkələrinin rəsmiləri, ictimai xadimləri, tanınmış ekspertlər də Azərbaycanın COP29-u uğurla təşkil edəcəyinə və hədəflərinə çatacağına əmindirlər. Diqqət edək:

Cahit Bağçı, Türkiyənin Azərbaycandakı səfiri:

- Biz COP29-u Azərbaycanı daha da gücləndirəcək qlobal tədbir kimi görürük. Türkiyə olaraq bu tədbirdə ən yüksək səviyyədə iştirak edəcəyik

Valeri Kolyux, Ukrayna Ali Radasının deputatı:

- Konfransın Bakıda keçirilməsi Azərbaycanın bərpaolunan enerjidən istifadə və enerji səmərəliliyi, iqlim dəyişmələrinə qarşı qlobal mübarizə üçün ekoloji texnologiyaların tətbiqi sahəsində ciddi geosiyasi oyunçuya çevrilməsindən xəbər verir.

Prajakti Kalra, Kembric Mərkəzi Asiya Forumunun tədqiqatçısı:

- Bir çox insan Azərbaycanın COP29-a ev sahibliyi etməsinə təəccüblənir, lakin tarixən bu bölgə iqlim və ətraf mühit problemlərinin həllində həmişə mərkəzi rol oynayıb. Bura sivilizasiyanın beşiyidir.

Valeriu Kiver, Moldovanın Ukraynadakı səfiri:

- Bu il dövlət rəhbərlərinin və əksər ölkələrin ətraf mühit nazirlərinin Bakıda toplaşaraq bu məsələni müzakirə etməsi Azərbaycanın qlobal səviyyədə qazandığı nüfuzu bir daha sübut edir. Əminəm ki, ölkə rəhbərliyinin və hökumətinin gördüyü tədbirlər sayəsində bu tədbir uğurla keçəcək.

Bu fikirlər ancaq son bir neçə gündə COP29-la bağlı səsləndirilən bəyanatların çox kiçik bir hissəsinin təqdimatıdır.

### HÖRMƏTİN VƏ DƏSTƏYİN PARLAQ SÜBUTU

Bakı bu dəfə də dünyada adından söz etdirməyi bacaracaq. COP29 kimi mötəbər bir tədbirin ölkəmizdə təşkili Azərbaycana istər regional, istərsə də beynəlxalq səviyyədə çoxşaxəli dividentlər vəd edir. Prezident İlham Əliyevin də vurğuladığı kimi, təqribən 200 ölkənin COP29-un Azərbaycanda keçirilməsinə dair yekdil qərarı bizim siyasətimizə hörmətin və dəstəyin parlaq sübutudur: “Biz artıq Qlobal Cənub və Qlobal Şimal arasında iqlim üzrə əməkdaşlığa töhfə veririk və istər iqlim dəyişikliyi ilə bağlı məsələlərdə, istərsə də qlobal təhlükəsizlik, beynəlxalq hüququn aliliyi, bir-birinin işlərinə qarışmamaq, qarşılıqlı hörmət məsələlərində qarşılıqlı anlaşmaya nail olunmasına səy göstərəcəyik”.

# COP29-U "SON ŞANS" KİMİ GÖRƏNLƏR

Avropa Parlamentindəki imkanlarından istifadə edən Fransa Azərbaycana qarşı qarayaxma kampaniyasının önündə gedir. Fransız parlamentarilər Bakıya bildikləri və bilmədikləri hər mövzuda şər atmağa çalışırlar.



RÜSTƏM QARAXANLI



Son günlərdə Azərbaycana qarşı qarayaxma kampaniyasının yeni dalğasını müşahidə edirik. Tək ölkəmiz üçün yox, bütün bölgə üçün əlamətdar hadisə olan COP29 ərəfəsində nədir bu, son ümid, yoxsa sadəcə gözügötürməzlik?

### EHTİYATLI OPTİMİZM

BMT-nin İqlim dəyişikliyinə dair Çərçivə Konvensiyası əsasında keçirilən COP-un əsas məqsədi dünyanın diqqətini ekoloji problemlərə yönəltməkdir. COP hər il növbə ilə Afrika, Latın Amerikası, Asiya, Okeaniya və Avropanın bir ölkəsində keçirilir. Avropanın öz daxilində namizəd qitənin şərti olaraq Qərb və Şərq hissələrinin təmsilçiləri arasında rotasiya prinsipi ilə müəyyən olunur. Sıra Şərqi Avropada olduğundan, bu coğrafiyanı təmsil edən ölkələrin seçimi Azərbaycanın üzərinə düşüb.

Ötən il COP29-un ev sahibi seçilərkən Azərbaycanla yanaşı, Ermənistanın da namizədliyi irəli sürülmüşdü. 2023-cü ilin 7 dekabrında Azərbaycan və Ermənistan arasında əldə edilmiş razılığa əsasən, rəsmi İrəvan Bakının namizədliyinə dəstəyini bildirdi. Bu anlaşma tək COP üçün deyil, bütövlükdə iki ölkə arasındakı sülh prosesi baxımından inqilabi hadisə sayılır. Çünki məhz bundan sonra danışıqların xüsusi intensivliklə davam etdirilməsinin, yekun sülhün məhz iqlim konfransı çərçivəsində imzalanacağına dair ehtimallar və təbii ki, arzuların səslənməsinin şahidi olmuşuq. Tərəflər arasındakı sülhə məhz COP29 çərçivəsində nail olunması cəhdləri rəsmi Vaşinqton tərəfindən daha aktivliklə nümayiş etdirilir.

İrəvanın Bakıda XİN rəhbəri Ararat Mirzoyanla təmsil olunacağı ehtimal edilir. İki gün öncə o, yekun sülhə doğru cəmi "1-2 formal məqamın qalması" barədə açıqlama verib. Mirzoyanın sözlərinə görə, tərəflərin tam sülhə gəlməsi istiqamətində "ehtiyatlı optimizm" var.



Olivye Dekotinyi

## İQLİM KONFRANSI VƏ SİYASİ QƏRƏZ

Erməni diasporundan maliyyələşən lobbiçi qruplar və media, habelə Ermənistan KİV-ləri tərəfindən Azərbaycana qarşı son aylarda intensivləşən COP29-la bağlı təbliğatın iki məqamı xüsusi diqqət çəkir: birincisi, Azərbaycan neft ölkəsi olduğu halda iqlim dəyişikliyinə dair mötəbər tədbirə necə ev sahibliyi edə bilər? İkincisi isə, Azərbaycan "erməni əsirlər"i azadlığa buraxmır deyə COP29 Bakıda keçirilməməlidir.

COP 1995-ci ildən etibarən keçirilir. Əvvəlki 28 ev sahibinin siyahısına baxdıqda görmək olar ki, indiyədək konfrans neft hasil edən ölkələrdə də keçirilib, onu ən çox istehlak edən dövlətlərdə də. Dünyanın aparıcı iqtisadiyyatlarına malik olan dövlətlərin neft korporasiyaları enerji daşıyıcılarının hasilatı, daşınması və emalı prosesinin liderləridir və elə ekologiyaya da ən böyük zərəri onlar vururlar. İqlim dəyişikliyinin ən iri katalizatorları da elə bu ölkələrdir. İndinin özünə qədər ABŞ COP-un əvvəlki konfranslarında əldə edilmiş bəzi razılaşmalara riayət etmir, yaxud ayrı-ayrı bəndlərlə bağlı qeydləri var. Belə olan halda Azərbaycanın ünvanına "qara piar" kampaniyasının "pioner"ləri olan media qurumlarının nədən məhz bu ölkələri təmsil etməsi çoxsaylı suallar doğurur.

Avropa Parlamentindəki imkanlarından istifadə edən Paris Azərbaycana qarşı fobiyası olan deputatları vasitəsilə bu kampaniyanın önündə gedir. Fransız parlamentarilər Bakıya qarşı bildikləri və bilmədikləri hər mövzuda şər atmağa və qara yaxmağa çalışırlar. Bu mənzərə bir çox hallarda istehza doğurur. Çünki Fransa boyda ölkənin parlamentini illərdir təmsil edən şəxslərin gerçək məlumat kasadlığı və qərəzliliyi ciddi siyasət və mübarizəyə həqarətdir. Fransızlar böhtan dolu çıxışlarını edirlər, ağızları açıq onlara baxan avropalı həmkarlarından isə bir nəfər özünə zəhmət verib soruşmur: Fransanın açıq okeanda həyata keçirdiyi nüvə sınaqları nəticəsində dünya iqliminə, biomüxtəlifliyə dəyən zərər barədə nə deyə bilərsiniz?



## ERMƏNİDƏN DAHA ÇOX ERMƏNİ OLAN FRANSIZ

Ermənipərəst "insan haqları müdafiəçiləri", o cümlədən, "Human Rights Watch" kimi qərəzli təşkilatları COP29 prizmasından narahat edən digər məsələ "erməni əsirləri"nin aqibətidir. Üzərinə insan hüquqları kimi bəşəri anlayışın müdafiəsini götürmüş belə qurumların əlləri minlərlə azərbaycanlının qanına batmış separatçı caniləri hansı kriteriyalara əsasən "əsir" hesab etmələrinin səbəbi məlumdur. Bölücü xuntanın liderlərinin həbs olunmasından bir il ötüb, ancaq indiyədək nə özünə hörmət edən bir beynəlxalq təşkilat, nə də dövlət rəsmisi bu mövzu ilə bağlı Azərbaycana hər hansı müraciət etməyib. Təbii ki, Fransa istisna olmaqla. Bu ölkənin Ermənistandakı səfiri Olivye Dekotinyi bu günlərdə deyib: "Azərbaycan ermənilərin Qarabağa qayıtmasına icazə verməyə borcludur. COP29-un təşkilatçısı kimi Azərbaycan beynəlxalq diqqəti özünə cəlb edir ki, bu da xüsusi beynəlxalq öhdəliklər yaradır. İndiki mərhələdə onların əsas məsuliyyəti Ermənistanla sülh müqaviləsi bağlamaqdır".

Fransa səfirinin hansı təhsil ocağında diplomatiya dərsi alması bizə maraqlı deyil, ancaq tarixdə hələ heç bir halda qalib dövlətin məğlub qarşısında sülh müqaviləsini imzalamaq kimi məsuliyyəti olmayıb. Əsl öhdəliyi bu gülünc iddianı Afrika və Asiyanın müxtəlif yerlərində insanlara qarşı olmazın vəhşiliklər etmiş, qətllər və soyqırımlar törətmiş bir dövlətin diplomatının söyləməsi yaradır. COP tarixində qəbul edilmiş qərarların əhəmiyyətinə görə 2015-ci ildə baş tutmuş Paris konfransının xüsusi yeri var. COP-un Parisdə keçirilməsi ərəfəsində Fransanın ünvanına Afrikadakı müstəmləkələrdə törətdiyi qanlı vəhşiliklərlə bağlı ittihamlar səslənirdimi? Görəsən, iqlimlə bağlı qəbul edilmiş qərarlar Fransanın müstəmləkəçilik siyasətinə hansısa təsir göstəribmi?

Fransa kimi türk və Azərbaycan qorxusu olan ölkələri, erməni diasporuna işləyən dairələri narahat edən əsas məsələ irəli sürdükləri tələblərə hansısa diqqətin yönəlməsi üçün COP29-u son şans qismində görmələridir.

# BAŞ TUTMAYAN GÜRCÜSTAN SSENARİSİ



Hakim “Gürcü Arzusu” partiyası parlament seçkilərində qalib gəlməklə bir daha göstərdi ki, Qərbin region dövlətlərinin daxili işlərinə qarışmaq cəhdləri baş tutmayacaq. Gürcü xalqı müxtəlif geosiyasi oyunlar nəticəsində üzləşdiyi müharibə və iqtisadi tənəzzülü rədd edərək, dövlətinin yanında olduğunu göstərdi.



AZƏR NURİYEV

Gürcüstanda oktyabrın 26-da keçirilən parlament seçkilərinin nəticələri regionda marağı olan dövlətlərin ən çox diqqət yetirdiyi məsələlər sırasındadır.

Gürcü xalqının məhz “Gürcü Arzusu”na səs verməsi onların milli-mənəvi dəyərlərə bağlılığını və bu dəyərləri qoruma əzmini nümayiş etdirdi. “Gürcü Arzusu”nun qalib gəlməsi həm də o deməkdir ki, Qərbin region dövlətlərinin daxili işlərinə qarışmaq cəhdləri baş tutmayacaq.

Ən əsası parlament seçkilərinin nəticələri Qərbin Ukraynada olduğu kimi, Cənubi Qafqazda da münaqişə ocağı yaratmasının qarşısını aldı.

**SEÇKİLƏRİN QALİBİ BRÜSSEL OLMADI**

Təbii ki, bu nəticələr Qərb və onun strukturlarını qane etməyib.

Artıq Avropa Komissiyası Gürcüstanın Avropa İttifaqına (Aİ) üzvlüklə bağlı danışıqlara başlaması üçün tövsiyə verməkdən imtina edib. Ümumiyyətlə, Qərbdə seçkinin nəticələrini özlərinin məğlubiyyəti kimi qəbul edirlər. Elə baş nazir Viktor Orbanla birgə Tbilisiyə gələn Macarıstanın xarici işlər naziri Peter Siyarto da bəyan edib ki, Gürcüstandakı parlament seçkilərinin qalibi Brüssel olmayıb.

Seçkilərdən sonra Gürcüstanın paytaxtı Tbilisidə və digər şəhərlərdə kütləvi aksiyaların keçiriləcəyi əvvəlcədən məlum idi. Müxalifət də bunu anons etmişdi. Qərb tərəfindən maliyyələşən qeyri-hökumət təşkilatları, media orqanları və digər siyasi partiyalar insanları küçə və meydanlara çıxarıb sabitliyi pozmağa cəhd göstərirlər. Amma hakimiyyət sabitliyi qoruyub saxlamağı bacarır.

**GÜRCÜ MÜXALİFƏTİNİN SƏHVİ**

Bu il ilk dəfə Gürcüstan parlamentinin 150 deputatı əvvəlki kimi qarışıq sistemlə deyil, tam proporsional sistem üzrə seçilib.

Seçkilərdə seçki bloklarının yaradılması qadağan olunub. Müxalifət partiyalarının razılığa gəlmək və vahid siyahı ilə çıxış etmək imkanı var idi, lakin daxili siyasət məsələlərində bir sıra fikir ayrılıqları olduğundan onlar bunu edə bilmədilər. Nəticədə tez bir vaxtda Avropa və Qərblə inteqrasiyanın tərəfdarı olan üç fərqli müxalifət ittifaqı və daha bir partiya seçkiyə qatıldı. Onlar ümid edirdilər ki, ümumilikdə, hakim partiyadan daha çox yer qazanarlar. Sonra isə parlamentdə koalisiya çoxluğu yaratmaq olar. Amma belə olmadı. Müxalifət səslərinin bir hissəsini itirdi.

Müxalifət partiyaları Gürcüstanın Avropa İttifaqına üzvlüklə bağlı olmayan məsələlərdə nə istədiklərini, vətəndaşlara nə təklif etdiklərini də aydın şəkildə formalaşdıra bilmədilər. Hakim partiya isə sülh və Ukraynada müharibə mövzularında ortaya konkret mövqe qoydu.

## “GÜRCÜ ARZUSU”NUN POPULYARLIĞININ SƏBƏBİ NƏDİR?

Bəs əhalinin az qala 80%-nin Avropa İttifaqına üzvlüyün tərəfdarı olduğu bir ölkədə tez-tez Rusiyanın maraqlarına xidmət etməkdə ittiham olunan “Gürcü Arzusu” niyə belə dəstəyə malikdir?

Təbii ki, səbəbsiz deyil. Birincisi, insanlar dünyada və regionda hansı siyasi proseslərin getdiyini görürlər. Yəni ortada yaxşı olmayan nümunələr var. Əvvəlki illərlə müqayisədə indi seçiciləri parıltılı sözlərə aldatmaq çətindir.

Bundan əlavə, Qərbin təklif etdiklərinin ölkənin milli maraqlarına və cəmiyyətin mentalitetinə uyğun olmadığı ortadadır. Müxalifətdən fərqli olaraq, hakim partiya gürcü cəmiyyətinin mühafizəkar hisslərindən məharətlə istifadə edir. Məsələn, “Gürcü Arzusu” əhalini “LGBT təbliği və populyarlaşdırılmasından” qorumaqdan danışır, müxalifət isə əksinə, bununla bağlı qanunvericiliyin formalaşdırılmasını istəyir. Təbii ki, müxalifətdən fərqli olaraq, hakim partiyanın bu mesajı bir çox seçiciyə xoş təsir bağışlayır. “Dünya dəyərlər xülasəsi” (World Values Survey) layihəsinə görə, Gürcüstan 2017-2022-ci illərdə sorğuda iştirak edən 88 ölkə arasında tolerantlıq baxımından 82-ci yerdə qərarlaşıb: respondentlərin 90%-dən çoxu homoseksuallığı qəbul etmədiklərini bildiriblər.

## İVANİŞVİLİNİN SİYASİ GEDİŞİ



“Gürcü Arzusu” təmsilçiləri seçki kampaniyası dövründə öz çıxışlarında müharibə mövzusundan da məharətlə istifadə ediblər. “Ölkəni müharibəyə sürükləmək istəyən daxili və xarici düşmənlər azacıq şans gözləyirlər ki, milli hökumət hansısa yolla agentlərlə əvəz edilsin. Bu da Gürcüstanın məhvi deməkdir”, - partiyanın sədri Bidzina İvanişvili seçkidən əvvəl qeyd edirdi.

Nəticələr göstərir ki, Qərblə münasibətlərdəki böhran fonunda əhalinin bir hissəsi Gürcüstanla birbaşa həmsərhəd olan Rusiya ilə sülhün qorunmasını vacib sayır.

Digər mühüm cəhət ondan ibarətdir ki, “Gürcü Arzusu” özünü Moskva ilə münasibətlərdə balansı qoruyub saxlamaqla yanaşı, Gürcüstanı Aİ-yə gətirəcək qüvvə kimi təqdim edir.

Beləliklə, artıq birmənalı şəkildə deyə bilərik ki, Qərbin Gürcüstan layihəsi pozulub. Onların mühüm geosiyasi əhəmiyyətə malik Cənubi Qafqazdakı xarici siyasəti axsamağa başlayıb.

**BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR**

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# 35 YAŞIN GƏTİRDİYİ PROBLEMLƏR

Hazırda əmək bazarında 35-40 yaşdan sonra iş tapmağın çətin olduğuna dair bir reallıq var. Mövcud vəziyyətin səbəbləri, tənzimlənməsi ilə bağlı ekspertlər arasında fikir ayrılığı mövcuddur.

SEVİNC ABBASOVA



Azərbaycanda 40 yaşdan sonra insanların iş tapmaq imkanları çətinləşir. Çünki işəgötürənlərin yaşla bağlı tələbləri mövcuddur. Tez-tez iş elanlarında da bu tələbin şahidi oluruq. Adətən elanlarda yaşı 35-dək olan işçilər axtarılır. Halbuki Azərbaycan qanunvericiliyinə görə, yaşa əsaslanan ayrı-seçkilik rəsmən qadağandır. Nəzərə alsaq ki, yaşı 35-dən yuxarı olan xeyli sayda əmək qabiliyyətli insan var, problemin miqyasının kifayət qədər böyük olduğunu görərik. Bəs, görəsən, bu durumdan çıxış yolları nədir? Dövlət orqanları bu istiqamətdə hansı addımları atmalıdırlar? Orta yaşlı vətəndaşlar əmək bazarında rəqabətə davam gətirmək üçün nə etməlidirlər?

### "İQTİSADİYYATIN ŞAXƏLƏNDİRİLMƏSİ VACİBDİR"

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın sədri, professor Elşad Məmmədovun sözlərinə görə, müəyyən yaşdan sonra insanların iş tapmasında çətinliklərinin yaranması iqtisadiyyatın strukturu ilə bağlıdır: "Əgər iqtisadiyyat lazımi səviyyədə şaxələndirilməyibsə, yüksək texnoloji tutumlu emalla bağlı sahələrdə tələb olunan inkişaf göstəriciləri yoxdursa, əmək bazarında problemlər ortaya çıxır. Bunu artıq işaxtaranların timsalında müşahidə edirik. Hesab edirəm ki, biz iqtisadiyyatın şaxələndirilməsinə nail olmalıyıq. Eyni zamanda, qeyri-xammal sektoruna investisiya yatırılmalıdır ki, bu da işgüzar fəallığın situmullaşdırılmasına, iqtisadi aktivliyə səbəb olsun. Bu isə öz növbəsində əmək bazarında yeni iş yerlərinin açılmasına və bazarda müvafiq təkana imkan yaratsın".

### "İŞƏGÖTÜRƏNLƏRİ QINAMAQ DOĞRU DEYİL"

Mütəxəssis Fəxri Ağayev isə deyir ki, bu məsələdə işəgötürənləri qınamaq doğru deyil: "Təklif edirəm ki, məsələyə şirkətlərin baxışı ilə baxaq və orta statistik 35 yaşlı insanı görək. Bu yaşa çatmış insanların ciddi bir hissəsi fiziki və psixoloji baxımdan ağırlaşır, ailə və məişət qayğıları çoxalır. Buna əlavə olaraq 35 yaşlı insan zamanında daimi inkişafına zaman və enerji ayırmadığına görə müasir bilik və bacarıqlara malik deyil. Məsələn, 10-15 il öncə iş həyatına başlayanda xarici dil tələbi olmadığına görə dil bilgisi də əksər hallarda olmur. Digər mühüm məqam odur ki, inkişafına zaman ayırmayan və baxış bucağı dar olan insanın həm də özündən daha gənc rəhbərə tabe olmaqla bağlı sıxıntısı ola bilir. 35 yaşlı insanla bərabər şirkətlərin 25 yaşlı gənclər seçimi də var. Yəni müasir biliyə malik, xarici dil bilən, daha enerjili, inkişafa açıq, özünü sübut etməyə həvəsli, daha az maaşla işə daha çox vaxt ayırmağa hazır insan. Şirkətlərin bu mövzuda seçim qərarları təbii deyil-mi?".




## "RƏQABƏTİN OLDUĞUNU UNUTMAMALIYIQ"

Ekspertin fikrincə, müəyyən yaş dövründən sonra üstünlük kimi görünən bəzi məqamlar əslində insanları geri aparır: "Etirazlardan biri odur ki, yaşlı insanlar peşəkar olurlar və həyat təcrübələri çox olur. Təəssüf ki, bu üstünlük kimi görünən iki məqam əslində zəif və geri çəkən tərəflərdir. Təcrübəli insanların ciddi hissəsi illərlə eyni hərəkətləri və işi etməyi təcrübə sayır. Müasir və sürətlə dəyişən dünyada isə həyat təcrübəsi bir çox hallarda mühafizəkar mövqeni göstərir və bu da iş dünyası tərəfindən müsbət qarşılanmır. Düşünürəm ki, bu vəziyyətin yaranmasında şəxslərin öz payları da az deyil. İnsan heç bir yaş və ya iş mərhələsində rahatlamamalıdır və şəxsi, peşəkar inkişafına zaman, enerji, vəsait ayırmalıdır, hər zaman rəqabətdə olduğunu unutmamalıdır".

### "ƏN AZ MƏSULİYYƏT ÖZƏL SEKTOR VƏ BİZNESDƏDİR"

F.Ağayevin sözlərinə görə, bu vəziyyətin aradan qaldırılmasında dövlətin rolu və məsuliyyəti böyükdür: "Hesab edirəm ki, işəgötürənlərin 35 yaş üzərində insanları işə qəbul etmələri üçün stimullaşdırıcı tədbirlər dövlət qurumları tərəfindən həyata keçirilməlidir. Dövlət həm də orta yaş üzərində olan insanların peşə dəyişmə, müasir bazar tələblərinə uyğun olan yeni bilik və bacarıqlara malik olmaları üçün dəstək verməlidir. Bu vəziyyətin yaranmasında ən az məsuliyyət özəl sektor və biznesdədir. Çünki rəqabət gücünü qorumaq və fəaliyyət göstərdiyi bazarda ayaqda qalmaq üçün biznes ona maksimum effektiv formada fayda verəcək insanları işə qəbul etmək istəyir və bu da çox təbii və doğrudur".

## ƏMƏK BAZARINDA QEYRİ-BƏRABƏR PAYLANAN İŞÇİ QÜVVƏSİ

"Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası"nın İcraiyyə Komitəsinin sədri Sahib Məmmədov isə bildirir ki, problem yaşla bağlı deyil. Onun sözlərinə görə, əmək bazarında tələblə təklif arasında olan uyğunsuzluq insanların iş tapmasını çətinləşdirir: "Azərbaycanda işçi qüvvəsi coğrafi olaraq qeyri-bərabər paylanıb. Demək olar ki, iş yerlərinin əksəriyyəti Bakı və Abşeronda cəmləşib. Məsələn, tibbi və pedaqoji heyətin təxminən 63 faizi bu ərazilərdə yaşayır. Ona görə də iri şəhərlərdə iş tapmaq çətindir. Eyni zamanda, Azərbaycanda əhalinin 64 faizi 40 yaşına çatmayanlardır. Əmək bazarına daxil olanların sayı onu tərk edənlərin sayından daha çoxdur. Əlbəttə, bu, Avropa ölkələrinin qibtə edəcəyi bir məsələdir. Çünki onlarda vəziyyət tam əksinədir, əhali qocalır. Bizdə isə nəsil cavandır. Əmək bazarının ehtiyacları ilə işçi qüvvəsinin sayı arasında fərq var. Bu fərqə görə iş tapmaq bir qədər çətindir. O səbəbdən də işəgötürənlər seçim edirlər".



### PEŞƏKARLARA HƏR ZAMAN İŞ VAR

S.Məmmədov vurğulayır ki, əslində, ixtisaslı kadr axtaran işəgötürən işçinin yaşına əhəmiyyət vermədən onu işə qəbul edir: "Düzdür, büdcə təşkilatlarında işləyənlər üçün çalışmanın son yaş həddi 65 nəzərdə tutulub. Bəzi istisna hallarda bu yaş həddi artırıla bilər. Amma 60 yaşdan sonra dövlət orqanlarında işə düzəlmək bir qədər çətindir. Çünki bu yaş pensiyaqabağı dövr sayılır. Özəl sektorda isə belə bir problem yoxdur. Bizdə elə sahələr var ki, onminlərlə vakansiyalar mövcuddur. Məsələn, tornaçı, qaynaqçı, elektrik-montajçı, ixtisaslı fəhlə peşələri və s. İşəgötürənlər bu sahələr üzrə yüksək maaşla kadr axtarsalar da, tapılmır. Əgər 40 yaşından yuxarı tornaçı varsa, onu zavod niyə işə götürməsin?".

S.Məmmədov həmçinin qeyd edir ki, müvafiq dövlət qurumları iş tapa bilməyən vətəndaşlara dəstək göstərməyə çalışır: "Məsələn, Dövlət Məşğulluq Mərkəzi tərəfindən müəyyən peşəyönümlü kurslar təşkil edilir. Ölkədə özünəməşğulluq proqramları həyata keçirilir. İş tapa bilməyən vətəndaşların aktiv məşğulluğunu təmin etmək üçün addımlar atılır. Lakin buna baxmayaraq, işsizlik həddi yüksək olaraq qalmaqdadır".

# USTA ZƏMANƏTİ, EHTİYAT HİSSƏSİ TAPMAMAQ QORXUSU




Ölkəmizdə elektrik mühərrikli nəqliyyat vasitələrinin sayı 60 faiz artıb. Hazırda elektrikli avtomobillərin infrastrukturu ilə bağlı aidiyyəti qurumlar və özəl sektor tərəfindən işlər aparılır.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**Elektrik mühərrikli nəqliyyat vasitələrinin sayı 60% artıb**

**Ölkəmizdə 300-ə yaxın enerji doldurma məntəqəsi var**

**200 enerji doldurma məntəqəsi dövlət tərəfindən quraşdırılıb**

**50 min manat civarında elektromobil gətirdikdə, 300 manat rüsum ödəyirsiniz**

Bütün dünyada olduğu kimi, ölkəmizdə elektrikli avtomobillərə maraq artıb. Satış göstəriciləri də bunu sübut edir. Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Elmin Məmmədov “Gələcək üçün dayanıqlı nəqliyyat” adlı tədbirdə çıxışı zamanı bildirib ki, ölkəmizdə elektrik mühərrikli nəqliyyat vasitələrinin sayı 60 faiz artıb. Həm ekoloji, həm də iqtisadi baxımdan bu avtomobillər olduqca sərfəlidir. Elektrikli avtomobillər təmiz enerji ilə işlədiyi üçün karbon emissiyalarını azaldır və ətraf mühitə daha az zərər verir. Həmçinin yanacaq xərcləri də ənənəvi daxili yanma mühərrikləri ilə müqayisədə aşağıdır. Lakin müsbət tərəfləri çox olsa da, əhalinin bir qismində elektrikli avtomobillərə inam tam formalaşmayıb. Kimisi şarj stansiyalarının azlığından ehtiyat edir, kimisi usta çatışmazlığından, kimisi də xidmət mərkəzlərinin az olmasından narahatdır.

Məlumat üçün bildirək ki, 2024-cü ilin mart ayında Prezident İlham Əliyev ölkədə elektromobillərdən istifadənin təşviqi ilə bağlı Sərəncam imzalayıb. Sərəncamla Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Energetika Nazirliyi, “Azərenerji” ASC və “Azərişıq” ASC-nin təklifləri əsasında hökumətə bir ay ərzində elektrik şarj stansiyalarının yerləşdirilməsi və quraşdırılması yerlərini müəyyən etmək tapşırılıb.

### ŞARJ STANSİYALARI İLƏ BAĞLI PROBLEM OLMAYACAQ

Azərbaycan Avtomobil Dilerləri Assosiasiyasının icraçı direktoru Eyyub Əliyev “Kaspi” qəzetinə açıqlamasında bildirdi ki, hazırda Bakı və bölgələr üzrə quraşdırılmış şarj aparatlarının sayı 200-ü keçib: “İlin sonuna qədər bu rəqəmin artması planlaşdırılır. Hazırda elektrikli avtomobillərin infrastrukturu ilə bağlı aidiyyəti qurumlar və özəl sektor tərəfindən işlər aparılır. Əvvəllər elektromobillərlə bölgələrə səfər etməyə qorxub çəkinirdiksə, indi rahatlıqla gedə bilirik. Çünki şarj stansiyaları ilə bağlı problem olmayacaq. Biz assosiasiya olaraq avqust ayında elektrikli avtomobillərin böyük bir karvanı ilə Nabrana yürüş etdik. Əyani olaraq göstərdik ki, bir dəfə şarj etməklə, Bakıdan Nabrana gedib, qayıtmaq mümkündür. Həmçinin Qəbələ istiqamətinə də yürüş planlaşdırırıq. Bununla da sübut edəcəyik ki, elektromobillərlə rahatlıqla dağlıq yollara, uzaq məsafəyə getmək mümkündür”.

### AVTOMOBİLDƏ HANSISA PROBLEM YARANDIQDA...

Məlumdur ki, elektrikli avtomobillərlə bağlı sürücüləri narahat edən ikinci məqam ehtiyat hissələrinin azlığı, ixtisaslı usta çatışmazlığıdır. Mütəxəssis bildirir ki, avtomobili rəsmi nümayəndəlikdən aldıqda, onun ustası da, zəmanəti də, ehtiyat hissəsi də olur: “Amma tanımadığınız şirkətlərdən, fərdi şəxslərdən aldıqda, avtomobilin servisə ehtiyacı olan vaxt nə ustasını tapacağıq, nə zəmanət verənini, nə də ehtiyat hissələrini. Çünki avtomobillər müxtəlif növlərdə bazara daxil olur. Bəzən görünüş, marka eynidir, amma onun 2-3 versiyası ola bilər. Bir çox hallarda avtomobildə sıradan çıxan detal məhz bu fərqliliklə bağlı olur. Ona görə də avtomobili rəsmi idxalçıdan almaq məsləhətlidir. Bu zaman avtomobildə hansısa problem yarandıqda, döyüləcək qapını tanıyırsınız. Düzdür, rəsmi idxalçılarla fərdi satanlar arasında qiymət fərqi var. Amma biz artıq pul ödəməklə gələcəkdə yarana biləcək hadisələrdən özümüzü sığortalaya bilirik”.



Eyyub Əliyev

## VƏTƏNDAŞDA ELEKTROMOBİL ALMAĞA GÜVƏN YARANIR

Nəqliyyat eksperti Eldəniz Cəfərov deyir ki, bu ilin ilk səkkiz ayı ərzində ölkəyə daha çox elektromobil gətirilib: “Məlumdur ki, ölkədə elektromobillərin idxalına hər hansı gömrük və vergi rüsumu tətbiq edilmir. Bu gün siz ölkəyə 50 min manat civarında elektromobil gətirdikdə, təxminən, 300 manat rüsum ödəyirsiniz. Bu, həm fərdi avtomobil gətirən vətəndaşlar, həm də hüquqi şəxslər, sahibkarlar üçün olduqca sərfəlidir. Əvvəllər elektromobillər daha çox qeyri-rəsmi gətirilirdi və rəsmi xidmət mərkəzləri olmurdu. Artıq bunlar rəsmi diler və distributorlar tərəfindən gətirilir, bu da özlüyündə vətəndaşda elektromobil almağa güvən yaradır”.

### İLİN SONUNA QƏDƏR ƏN AZI 500 ENERJİDOLDURMA MƏNTƏQƏSİ OLACAQ

Enerjidoldurma məntəqələrinin sayına gəldikdə isə, mütəxəssis bildirir ki, bu məntəqələrin yaradılması üçün lazım olan avadanlıqlar da dövlət tərəfindən idxal zamanı rüsumlardan azad edilib: “Bu da sahibkarlar üçün fürsətdir ki, bu avadanlıqları gətirsinlər və enerjidoldurma məntəqələrinin sayını artırsınlar. Bu gün 300-ə yaxın enerji doldurma məntəqəsi var, onun təxminən 200-ü dövlət tərəfindən quraşdırılıb, qalanlarını isə özəl qurumlar özləri təşkil edirlər. Bu say durmadan artır. Hər gün “Azərişıq” tərəfindən ən azı bir enerji doldurma məntəqəsi quraşdırılır. Düşünürəm ki, bu ilin sonuna qədər ölkə üzrə ən azı 500 enerjidoldurma məntəqəsi olacaq. Elektromobillərin sayı enerjidoldurma məntəqələrinin sayına mütənasibdir. Bu o deməkdir ki, enerjidoldurma məntəqəsi nə qədər çox olacaqsa, elektromobillərin sayı da bir o qədər artacaq”.



Eldəniz Cəfərov

### ELEKTROMOBİL ALMAQ ÜÇÜN İKİ ƏSAS ŞƏRT

Mütəxəssis də təsdiqləyir ki, elektromobil istifadəçilərinin bəzilərinin şikayəti ehtiyat hissələrinin və ustasının olmaması ilə bağlıdır: “Bu da ondan irəli gəlir ki, bizim vətəndaşlar bəzən ölkədə rəsmi dileri fəaliyyət göstərməyən elektromobilləri alırlar. Bu zaman əlbəttə ki, onların nə ustası olur, nə də ehtiyat hissəsi. Ona görə də biz vətəndaşlarımıza tövsiyə edirik ki, ölkədə rəsmi servisi olan və Avropa standartlarına cavab verən, yəni Avropa üçün istehsal olunan elektromobilləri alsınlar ki, təmir zamanı hər hansı problem yaşamasınlar. İkinci əsas məqam odur ki, elektromobil alarkən çalışmaq lazımdır onun zəmanəti olsun. Vətəndaşlarımız bu iki əsas şərtlərə əməl etsələr, problem yaşamazlar”.

DÖYÜŞLƏR BAŞLAYANDAN İKİ GÜN SONRA CƏBHƏYƏ YOLLANAN, YARALANSA DA, YENİDƏN SƏNGƏRƏ QAYIDAN QƏHRƏMANIMIZ

HAZIRLADI

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

# VƏTƏN ÜÇÜN TƏHSİLİNİ İKİ DƏFƏ YARIMÇIQ QOYDU



Elxan Rzayev Vətən uğrunda iki dəfə təhsilini yarımçıq qoyub hərbi xidmətə yollanıb. Döyüşlərdə ağır yaralansa da, yenidən ordu sıralarına qatılıb. Ömrü qısa olsa da, qəhrəmanlıq dastanı yazan şəhidimiz bu gün hər birimizin qəlbində və yaddaşında əbədi yaşayır.

Vətən uğrunda döyüşərək şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızdan biri də Rzayev Elxan Ariz oğludur.

Rzayevlər ailəsinin tək oğul övladı Elxan 2020-ci ilin 29 sentyabrında döyüşlərə yollanır. Müharibənin bitməyinə cəmi bir həftə qalmış Qubadlı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olur. Elxan ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

Xatırladaq ki, Elxan Rzayev 1994-cü il aprelin 15-də Sabirabad rayonunun Qəzli kəndində dünyaya gəlib. Orta təhsilini 2000-2011-ci illərdə B.Rəhimov adına Qəzli kənd tam orta məktəbində alan Elxan, orta məktəbi bitirərək Bakı Dövlət Kompüter Kollecinə daxil olur. 2012-ci ildə həqiqi hərbi xidmətə çağırılanda təhsilini yarımçıq qoyaraq Vətənə olan borcunu yerinə yetirməyə yollanır. 2014-cü ildə ordudan tərxis olunaraq təhsilini davam etdirir. 2017-ci ildən etibarən Qəzli kənd tam orta məktəbində müəllim kimi əmək fəaliyyətinə başlayır. 2020-ci ildə Sumqayıt Dövlət Universitetinə qəbul olunur. İkinci Qarabağ savaşının başlanması ilə təhsilini yarımçıq qoyaraq könüllü şəkildə cəbhəyə yollanır.

### "YALNIZ ONUN YANINDA ÖZÜMÜ RAHAT HİSS EDİRDİM"

Elxanın anası Gülnarə Rzayeva oğlunun uşaqlığı ilə bağlı xatirələri bizimlə bölüşdü: "Uşaqlığından yaşıdlarından çox seçilirdi. O qədər mehriban uşaq idi ki... Özü balaca olsa da, qəlbi böyük idi. Uşaq yaşlarından vətənpərvər olub. Məktəbdə əlaçı idi. Valideynlərinin sözündən heç vaxt çıxmazdı. Elxan iki bacının tək qardaşı idi".

Bacısı Aynurə deyir ki, Elxanın qardaş kimi də haqqı ödənməz: "Bizi necə qoruyurdusa, Vətəni də o cür qorudu. Biz Elxanla sağlığında da fəxr edirdik. Həmişə bizim başımızı uca edirdi. Həmişə fəxrlə deyirdim ki, "Elxan müəllimin bacısıyam". Böyük qardaş kimi onu hər zaman arxamda hiss etmişəm. Məktəbə gedəndə bacımla getmirdim. Gözləyirdim, Elxanla getmək istəyirdim. Çünki onun yanında özümü çox qürurlu hiss edirdim. Həmişə deyirdi ki, "mən oğlanam, mənimlə gəlmə, bacımın yanında get". Mən isə həmişə israr edirdim ki, "səninlə gedəcəyəm".

### "KOMPÜTERİNDƏ ŞƏHİDLƏRİMİZİN RƏSMLƏRİ VAR İDİ"

Elxan bacılarını qorumaqla yanaşı, həm də onların qayğısına qalıb: "Ondan valideynimiz qədər çəkinirdik. O, "olmaz" deyirdisə, bu artıq bizim üçün qanun idi. Birlikdə oruc tutardıq, namaz qılardıq. Səhər imsaka özü dururdu, hər şeyi hazırlayırdı. Mənə, anama əziyyət vermək istəməzdi. Hər gün uşaqlarımı görmək üçün bizə gələrdi. Şəkillər çəkdirib kompüterində saxlayırdı. Elə bil şəkilləri özündən yadigar saxlayıb. Hətta kompüterində əvvəlki şəhidlərimizin də rəsmləri var idi".

Yalnız ailəsinin deyil, kənd camaatının da sevimlisi idi Elxan. Aynurə xanımın sözlərinə görə, hər kəs ətrafına toplaşardı. Uşaq vaxtından həm böyüklərin, həm kiçiklərin hörmətini, sevgisini qazanmışdı: "Olduqca savadlı idi. Danışıq qabiliyyəti yüksək səviyyədə olduğu üçün həmişə bütün məclislərdə ona söz verərdilər. Elxan çox vətənpərvər idi. Vətəni bizdən də çox sevirdi. Onun haqqında fikrimizi sözlərlə ifadə etməkdə çətinlik çəkirik".

### "UŞAQLARLA NECƏ DİL TAPACAĞINI ÇOX YAXŞI BİLİRDİ"

Elxan həm də informatika müəllimi idi. Məktəbdə işlədiyi dövrdə də həm şagirdlərin, həm də müəllimlərin böyük rəğbətini qazanmışdı: "Şagirdləri, müəllim yoldaşları onun haqqında göz yaşı, ürək ağrısı ilə danışırlar. Uşaqlar müəllimlərinin yoxluğunu qəbul edə bilmirlər. Şagirdləri hər dəfə deyirlər ki, "Elxan müəllim bizə sadəcə informatika fənnini yox, həm də həyatı öyrədirdi".

Elxanın həm dostu, həm də müəllim yoldaşı olan Xanəli Qubadovun sözlərinə görə, o, uşaqların sevimlisi idi: "Elxan müəllimlə biz eyni ildə imtahan vermişik və Qəzli kənd tam orta məktəbinə qəbul edilmişik. 2017-ci ildən bərabər fəaliyyət göstərmişik. Elxan sadəcə müəllim yoldaşı deyildi. Biz onunla həm dost, həm də qardaş idik. Elxan məktəbimizdə həm müəllimlər, həm şagirdlər tərəfindən sevilirdi. Hər kəslə olduqca mehriban idi. Şagirdlərinə də hər zaman vətənpərvərliyi aşılayırdı. Şagirdlər səbirsizliklə gözləyirdilər ki, həftədə bir dəfə Elxan müəllimin informatika dərsi olsun. Həvəslə sıraya düzülüb informatika otağına yollanırdılar. Uşaqlarla necə dil tapacağını çox yaxşı bilirdi. Onun şəhid olması hər birimizə olduqca pis təsir etmişdi".

### "MÜHARİBƏYƏ GEDİRƏM"

X.Qubadov deyir ki, dostu müharibəyə yollanmamışdan öncə şagirdlərini ona əmanət edib: "Elxan müəllim hər zaman Qarabağ haqqında ürək ağrısı ilə danışırdı. Sentyabrın 29-da müharibəyə yollandı. Getməmişdən öncə birinci mənə zəng etdi. Səhər saatları idi, dərsdə idim. Dedi müharibəyə yollanıram. Birinci qulaqlarıma inanmadım, zənn etdim ki, zarafat edir. Sonra gördüm ciddidir. Dedi "komissarlıqdayam, səninlə vidalaşmaq üçün yığdım. Müəllimlərə, şagirdlərə məndən çoxlu salam de, məndən dualarınızı əsirgəməyin". Təəssüflər olsun ki, torpaqlarımız qayıtsa da, Elxan qayıtmadı... Amma ruhən hər zaman qəlbimizdədir, bizimlədir".

### "MƏN GETMƏSƏM, BƏS KİM GEDƏCƏK?!"

Bacısı Aynurə Elxanın müharibəyə yollanmasını belə xatırlayır: "Sentyabrın 27-i müharibə başladığı gün hamımız birlikdə eyvanda oturmuşduq. Elxan eşidəndə ki, müharibə başlayıb, sevindi. Atama dedi ki, "şükürlər olsun, torpaqlarımızı geri qaytaracağıq". Elə həmin gün gedib könüllü komissarlığa müraciət etdi. Evdə olduğu dövrdə də müəllimlərlə, dost-tanışla birgə ön cəbhəyə ləvazimatlar göndərirdi. Müharibə başlayandan sonra cəmi iki gün evdə qaldı. Biz ona dəfələrlə dedik ki, "müəllimsən, burada şagirdlərinin sənə ehtiyacı var. Bəlkə getməyəsən". "Torpaqlarımızı işğaldan azad etməyə gedirəm", - dedi. Bizim üzülməyimizə icazə vermirdi. Cəbhəyə getməmişdən bir gün öncə axşam dost-tanışla sağollaşdı. Biz ona "getmə" deməyə çəkinirdik. Dostları deyəndə də sözlərini bitirmələrinə icazə verməyib. Deyib ki, "tək oğul olsam da, mən getməsəm, bəs kim gedəcək?! Düşmən yanında başı aşağı gəzirik. Mən əzab çəkirəm ki, torpaqlarımız işğal altındadır". Hətta gedəndə ötürməyimizə belə icazə vermədi. Bizə ürək-dirək verirdi ki, "qorxmayın, bu, sadəcə hazırlıq mərhələsidir". Çox ruh yüksəkliyi ilə müharibəyə yollandı".

> *"Elxan eşidəndə ki, müharibə başlayıb, sevindi. Atama dedi ki, "şükürlər olsun, torpaqlarımızı geri qaytaracağıq". Elə həmin gün gedib könüllü komissarlığa müraciət etdi."*

### "ONUN QƏHRƏMANLIĞINI ÖZ GÖZLƏRİMLƏ GÖRDÜM"

Bölük komandirinin müavini, Baş gizir Ruslan Xəlilov Elxanı vətənpərvər, mərd, cəsur döyüşçü olaraq xatırlayır: "Elxan könüllü şəkildə müharibəyə qatılan əsgərlərdən biri idi. Biz sonradan bildik ki, müəllimdir. Əsgərlərdən seçilirdi. Sentyabrın 27-dən oktyabrın 8-ə qədər bərabər döyüşdük. Füzuli və Cəbrayıl uğrunda döyüşlərdə onun qəhrəmanlığını öz gözlərimlə gördüm. Mərd, qorxmaz, cəsur əsgər idi. Onda heç vaxt qorxu deyilən hiss görmədim. Hər zaman deyirdi ki, "daha da irəliyə gedək". Sona qədər gedib torpaqlarımızın hamısını işğaldan azad etmək istəyirdi. Bu eşqlə yanıb tutuşurdu. Deyirdi "bu yolda şəhid də olsam, əsas odur torpaqlarımız düşmən tapdağı altında olmasın".

### AĞIR YARALANDIĞINI AİLƏSİNDƏN GİZLİ SAXLAYIRDI

Elxan döyüşdə ağır yaralanıb, amma ailəsinə "yıxılmışam" deyib. Gülnarə Rzayevanın sözlərinə görə, onlar bu xəbəri kənd camaatından eşidiblər: "Hər gün onunla əlaqə saxlayırdıq. 15 gün sonra kənddə xəbər yayıldı ki, Elxan yaralanıb. Danışanlar deyir ki, onları pusquya salıblar, maşınları minaya düşüb. Həmin dövrdə də onunla əlaqəmiz var idi. Şok olduq ki, axı Elxanla təzəcə danışmışıq. O isə bizə deyir ki, "hər şey yaxşıdır, narahat olmayın". Elxana zəng edəndə dedi ki, "sizə səhv məlumat veriblər. Mən yaralanmamışam, sağ-salamatam". Dedik ki, atanla səni görmək istəyirik. O zaman dedi ki, "bir günlük Ağcabədiyə gələcəyəm". Sən demə, sarğısını dəyişdirmək üçün gəlirmiş. Onda artıq yaraları yavaş-yavaş sağalırdı. Ağcabədidə də israrla dedi ki, "biz heç müharibəni görmürük, mən arxa tərəflərdəyəm". Amma rabitəçi olaraq elə ən öndə gedən əsgərlərdən imiş. Lakin mən onun yarasını hiss etmişdim. Qoluna əl vuranda özünü çəkməyindən bildim. Soruşanda niyə özünü çəkirsən, dedi ki, "təlimdə yıxılmışam, sadəcə qolum sıyrılıb". Şəhid olduqda bizə dedilər ki, yarasının tikişi sökülməyib".

## "YARASI SAĞALMAMIŞ YENİDƏN DÖYÜŞLƏRƏ QAYITDI"

Elxanın yaralandığı döyüşdə Ruslan Xəlilov onunla birgə olub: "Oktyabrın 8-də Cəbrayıl-Hadrut istiqamətində kəşfiyyat xarakterli dayanmaq məcburiyyətində qaldıq. Bu zaman bizi pusquya saldılar. Elxan həmin döyüş zamanı yaralandı. Biz axşama qədər düşmənlə mübarizə apardıq. Vəziyyət səngidikdən sonra digər yaralıları və Elxanı hospitala yola saldıq. Ondan sonra onunla əlaqəm kəsildi. Lakin sonradan eşitdim ki, Elxan yenidən ordu sıralarına geri qayıdıb. Ağır yaralansa da, yarası sağalmamış yenidən döyüşlərə qatıldı. Noyabrın 2-də bir gün əvvəl Qubadlı istiqamətində Yaz düzü uğrunda gedən döyüşlərdə şəhid olduğu xəbərini aldıq".

### "SANKİ ƏVVƏLCƏDƏN BİLİRDİ..."

Elxan döyüşə yenidən qatıldıqdan sonra ailəsi ilə daha az danışmağa başlayıb. Müharibənin bitməsinə sayılı günlər qaldıqda isə ailəsinə acı xəbəri verilib. Bacısı Aynurə deyir ki, onun şəhid olması xəbərini də Rzayevlər ailəsindən gizlədiblər: "Bir neçə gün xəstəxanada müalicə alıb, amma tam sağalmamış yenidən könüllü şəkildə Vətənə borcunu ödəmək üçün döyüş bölgəsinə geri qayıdıb. Anama, atama ürək-dirək verib, onları geriyə yola salıb. Ağcabədidə olanda bizi də yığmışdı. Mən kövrəldim, danışa bilmədim. Bizə təsəlli verdi, tapşırdı ki, möhkəm olun. Sanki əvvəlcədən bilirdi ki, döyüş bölgəsinə getsə, bir daha geri qayıtmayacaq. Həmin gün axşam məni yenidən yığmışdı. Amma evdə olmadığım üçün uşaqlarımla danışıb. Bəlkə də mənə sözü var idi, amma danışa bilmədik. O gündən sonra onunla cəmi bir ya iki dəfə danışa bilmişdik. Sonra isə şəhid xəbəri gəldi. Noyabrın 1-i - o, şəhid olanda bütün kənd bilirmiş, amma heç kim cəsarət edib bizə deməmişdi. Noyabrın 2-i bizə dedilər ki, "Elxan yaralanıb, onun yanına gedirik". Elxanı kəndimizə gətirməyənə qədər şəhid olduğuna inana bilmirdik. Yalnız gətiriləndə şəhid olduğunu bildik".

Elxan cismən dünyadan köçsə də, sevdiklərinin qəlbində daim yaşayır. Artıq dörd ildir hər il noyabrda Elxan Rzayevin şərəfinə anım tədbirləri keçirilir.

Elxan və onun timsalında bütün şəhidlərimiz hər zaman qəlbimizdə var olacaq və daim yad ediləcək. Allah hər birinə rəhmət eləsin!









## SOCAR "Millenicom"un satış prosesini başa çatdırıb

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Türkiyədəki neft emalı, neft-kimya, təbii qaz və enerji ticarətinin əsas iş sahələrində fəaliyyət göstərən törəməsi "SOCAR Türkiyə" şirkəti bu sahələrdən kənar qrup şirkətlərindən olan "Millenicom" telekommunikasiya şirkətini aktivindən çıxarır.

Bu barədə "Report" "SOCAR Türkiyə"nin məlumatına əsasən xəbər verir. Bildirilib ki, "Millenicom" bu razılaşma çərçivəsində artıq "Albaraka Portföy Yönetimi" A.Ş. Dördüncü Qarışıq Risk Kapitalı İnvestisiya Fondu çətiri altında müştərilərinə xidmət göstərəcək.

Qeyd edək ki, 2019-cu ildən "SOCAR Türkiyə" qrupuna daxil olan "Millenicom" şirkəti təxminən 400 min abunəçiyə sürətli, öhdəliksiz və limitsiz fiber internet xidməti təqdim edərək Türkiyənin aparıcı alternativ operatorlarından biri olub. Şirkət fərdi və korporativ müştərilərə yüksək sürətli və fasiləsiz internet xidməti təqdim etməklə yanaşı, müştəri məmnuniyyəti yönümlü yanaşması ilə sektorda hörmətli mövqedə yer alır.

Bu satışın həyata keçirilməsi ilə "SOCAR Türkiyə" neft emalı, neft-kimya və təbii qazı əhatə edən əsas iş sahələrinə fokuslanaraq əməliyyat səmərəliliyini artırma və davamlı böyümə hədəflərini reallaşdırmasına töhfə verəcək.

# İLLİK İNFLYASİYA PROQNOZUNA DÜZƏLİŞ EDİLİB

Azərbaycan Mərkəzi Bankı bu il üçün inflyasiya proqnozunu 0,3% bəndi azaldaraq 5,1%, gələn il üçün isə inflyasiya proqnozunu 0,3% bəndi artıraraq 5,8%-ə çatdırıb. Qurumun valyuta ehtiyatlarında da azalma müşahidə edilib.




Azərbaycan Mərkəzi Bankı (AMB) ölkədə iqtisadi artımın 2024-cü ildə 3,9%, 2025-ci ildə isə 3,3% olacağını proqnozlaşdırır. Bunu AMB sədri Taleh Kazımov keçirdiyi mətbuat konfransında bildirib. "O cümlədən qeyri-neft-qaz sektorunda bu il 6,5%, gələn il isə 5,1% artım gözləyirik", - deyə o qeyd edib.

T.Kazımov həmçinin bildirib ki, AMB bu il dünya bazarında neftin 1 barelinin orta qiymətinin 81,4 ABŞ dolları, gələn il isə 79,2 ABŞ dolları olacağını proqnozlaşdırır. "Təbii qazın isə min kubmetrinin orta qiymətinin bu il 290 ABŞ dolları, gələn il isə 340 ABŞ dolları olacağını gözləyirik", - deyə o qeyd edib.

### İNFLYASİYANI ARTIRAN VƏ AZALDAN AMİLLƏR

AMB rəhbərliyi ölkədə inflyasiyanı artıran və azaldan amilləri də açıqlayıb. Hazırda Azərbaycanda inflyasiyanı artıran amil xarici ticarət tərəfdaşımız olan ölkələrin milli valyutasının bahalaşması, inflyasiyanı azaldan amil isə manatın nominal effektiv məzənnəsinin artmasıdır.

T.Kazımov rəhbərlik etdiyi qurumun illik inflyasiya proqnozuna düzəliş etdiyini xatırladıb: "Bu il üçün inflyasiya proqnuzunu 0,3% bəndi azaldaraq 5,1%, gələn il üçün isə 0,3% artıraraq 5,8%-ə çatdırmışıq".

Mövcud siyasətlə baza ssenari üzrə 2024-cü ilin sonuna və 2025-ci ildə illik inflyasiyanın hədəf daxilində (4±2%) olacağı proqnozlaşdırılır. Ümumilikdə, mövcud monetar siyasət inflyasiyanın hədəf diapazonu daxilində saxlanılmasına və inflyasiya gözləntilərinin sabitləşdirilməsinə yönəlib.

### VALYUTA BAZARINA SATIŞYÖNLÜ MÜDAXİLƏ DAVAM EDƏCƏK

T.Kazımov vurğulayıb ki, AMB-nin valyuta bazarına satışyönlü müdaxiləsi bu ilin sonuna qədər davam edəcək. "Oktyabrda 424 milyon ABŞ dolları məbləğində valyuta satışımız olub. Bu da dövlət ehtiyacının ödənilməsi ilə bağlıdır. Gözlənilir ki, növbəti 2 ayda da satışımız olsun", - deyə o qeyd edib.


Taleh Kazımov

Qeyd edək ki, AMB İdarə Heyəti uçot dərəcəsinin 7,25 % saxlanılması barədə qərar qəbul edib. Faiz dəhlizinin aşağı həddi 6,25%, yuxarı həddi isə 8,25% saxlanılıb. "Bu qərar faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəfdə (4±2%) olması, daxili və xarici şəraitin təhlili nəzərə alınmaqla qəbul olunub", - deyə AMB-nin məlumatında vurğulanır.

AMB-nin məlumatında həmçinin qeyd olunur ki, bu ilin yanvar-oktyabr aylarında qurumun emissiya etdiyi notların məbləği 3 dəfədən çox azalıb. Oktyabrda bir günlük təminatsız əməliyyatlar üzrə orta faiz (1D AZIR) müvafiq olaraq 7,48% olmaqla faiz dəhlizinin daxilində formalaşıb. Təminatsız bazarda aktivlik yüksək olaraq qalır. Bir gün ərzində baş tutan əməliyyatların orta həcmi oktyabrda 673 milyon manat olub.

# "AZƏRSUN HOLDİNQ" USTAD DƏRSİ TƏŞKİL EDİB

2024-cü il Prezident İlham Əliyevin sərəncamı ilə "Yaşıl dünya naminə həmrəylik" ili elan olunandan bu istiqamətdə bir çox maraqlı layihələr həyata keçirilir.

"Azərsun Holdinq" də öz növbəsində mövzuya xüsusi həssaslıqla yanaşaraq bu istiqamətdə bir çox layihələr reallaşdırır.

Bu dəfə ölkənin aparıcı media qurumlarında çalışan xanımlar üçün "Yaşıl dünyanın şəfası" adlı ustad dərsi təşkil edilib.



"Dreamland Herbal Garden"nin dəstəyilə baş tutan görüşdə xanımlara təbiətin bizə bəxş etdiyi şəfalı otlardan danışılıb.

Şəfalı otların nə kimi faydaları olduğu, eyni zamanda otlara necə qulluq etməyimiz haqqında da məlumat verilib.

Görüşün sonunda isə xanımlar onlara təqdim olunan otlardan çay dəmləyiblər.

Daha sonra media nümayəndələri "Dreamland Herbal Garden"- dərman və aromatik bitkilərdən ibarət şəfalı və sehirli astrobağa baş çəkiblər.

Orada becərilən otlarla tanış olub, ətraflı məlumat əldə ediblər.

Kaspi
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2555
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

VƏTƏNDAŞLARIN DƏRMAN EHTİYACLARINI QARŞILAMALARI ASANLAŞACAQ

# DƏRMANLAR UCUZLAŞACAQ?

**Nadir xəstəliklərin müalicəsində istifadə olunan dərman vasitələri təkcə Azərbaycanda deyil, istehsalçı ölkədə də çox bahadır. Bu dərmanların ƏDV-dən azad olunması, ən azından 18 faiz ucuzlaşma deməkdir.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda xroniki və nadir xəstəliklərin müalicəsi zamanı istifadə olunan dərman preparatlarının əlavə dəyər vergisindən (ƏDV) azad olunması müzakirə edilir. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən mətbuata verilən məlumata görə, qurumun Vergi siyasəti Baş İdarəsi əczaçılıq sahəsində çalışan şirkətlərin, bu sektoru təmsil edən "Azərbaycan Əczaçı Sahibkarlar Assosiasiyası" İctimai Birliyinin nümayəndələri ilə görüş keçirib. Xidmətin aidiyyəti funksional strukturlarının nümayəndələrinin də qatıldığı görüşdə sahibkarların ƏDV inzibatçılığının təkmilləşdirilməsi, əczaçılıq sahəsində, xüsusilə, xroniki və nadir xəstəliklərin müalicəsi zamanı istifadə olunan dərman preparatlarına münasibətdə ƏDV azadolmaları və ya diferensial ƏDV-nin tətbiqi imkanları, vergi inzibatçılığı ilə bağlı yaranan çətinliklər, sahənin inkişafına müsbət təsir edə biləcək beynəlxalq təcrübədə mövcud mexanizmlərin tətbiqi imkanları və digər məsələlər müzakirə edilib.

Maraqlıdır, qərar qəbul edilərsə, bu dərmanların qiymətlərində azalma müşahidə edə bilərikmi?

### BU XƏSTƏLƏR DƏRMAN TAPMAQDA ÇƏTİNLİK ÇƏKİRLƏR

Azərbaycan Əczaçı Sahibkarlar Assosiasiyasının rəhbəri Azər Xudiyev "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, qonşu ölkələrdə dərman preparatları üzrə vergi və gömrük rüsumlarının tənzimlənməsi ilə bağlı araşdırma apardıqdan sonra bu layihəni təklif ediblər: "Məsələn, qonşu Gürcüstanda dərman vasitələri üçün heç bir rüsum tələb olunmur. Bəzi ölkələrdə vergilər diferensial olaraq tənzimlənir. Biz dövlət büdcəsinə böyük miqdarda zərər verməməklə, Azərbaycan vətəndaşlarının dərman ehtiyaclarını qarşılamaq üçün təkliflər verdik, vətəndaşların xüsusi qruplarının tələbatlarına uyğun olaraq bəzi dərman preparatlarının ƏDV-dən azad olunmasının gələcək layihələrdə nəzərə alınmasını xahiş etdik".

A.Xudiyev bildirir ki, nadir xəstəliklərlə mübarizə aparan vətəndaşlar var ki, onlar dərmanla təmin olunmaqda çətinlik çəkirlər: "Bəzi nadir xəstəliklər var ki, onların qeydiyyatları yoxdur. Çünki adından da göründüyü kimi nadir hallarda rast gəlinir. Bu xəstəliklərin müalicəsində istifadə olunan dərmanların yalnız müəyyən icazələrlə ölkəyə idxalı mümkündür. Bunlarla yanaşı, onkoloji xəstəliklər, astma, şəkərli diabet və digər xroniki xəstəliklərin müalicəsində istifadə olunan dərmanların da ƏDV-dən azad olunması vətəndaşlar üçün əlverişli olar. Düzdür, vətəndaşlar dövlət tərəfindən bəzi dərmanlarla pulsuz təmin olunub. Amma yeni məhsullar çıxır ki, vətəndaş özü onu aldığı halda ƏDV-dən azad oluna bilər".

### "SOSİAL SİYASƏTİMİZDƏ BÖYÜK DÖNÜŞ YARADACAQ"

Mütəxəssis vurğulayır ki, bu qərar qüvvəyə mindikdə, artıq digər dərmanlarla bağlı da addımların atılması mümkündür: "Bu gün Azərbaycan vətəndaşları icbari tibbi sığorta ilə ödənişsiz tibbi xidmət almaq imkanlarına malikdir. Ambulator xidmətin də gələcəkdə ödənişsiz olması gözlənilir. Bunun tətbiqi sosial siyasətimizdə böyük dönüş yaradacaq. Biz də assosiasiya olaraq, proseslərin uğurla həyata keçməsinə dəstək olmağa çalışacağıq".





Müşfiq Məmmədli

## BU DƏRMANLAR KİFAYƏT QƏDƏR BAHADIR

Millət vəkili Müşfiq Məmmədli deyir ki, həm ölkənin iqtisadi vəziyyətini, həm də əhalinin sağlamlığını düşünərək bu addımların atılması vacibdir: "Xüsusilə, nadir xəstəliklərin müalicəsində və bəzi xroniki xəstəliklərdə istifadə olunan dərman preparatlarının qiyməti kifayət qədər yüksəkdir. Bu xəstəliklərin rastlaşma intensivliyi çox aşağı olduğu üçün dərmanları həddindən artıq bahadır. Çünki sözügedən dərmanlar hər ölkədə istehsal edilmir. Bu xəstəlikdən əziyyət çəkən insanlar həqiqətən də bu preparatların əldə olunmasında həm maddi, həm də tapılması baxımından çox böyük əziyyət çəkirlər. Onların ƏDV-dən azad olunması bu dərmanların kifayət qədər ucuzlaşmasına gətirib çıxara bilər. Bu yanaşmanı alqışlayır və düzgün addım kimi qiymətləndirirəm".

### ƏN AZINDAN 18 FAİZ UCUZLAŞMA DEMƏKDİR

Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli də təsdiqləyir ki, nadir xəstəliklərin müalicəsində istifadə olunan dərman vasitələri təkcə Azərbaycanda deyil, istehsalçı ölkədə də çox bahadır: "Bu dərmanların ƏDV-dən azad olunması, ən azından 18 faiz ucuzlaşma deməkdir. Ölkəmiz bu sahədə idxaldan asılıdır. Hesab edirəm ki, yalnız nadir xəstəliklərin müalicəsində tətbiq olunan dərman preparatları deyil, ümumiyyətlə, Azərbaycana idxal olunan bütün dərman məhsulları ƏDV-dən azad edilməlidir".

Həmsöhbətimiz bildirir ki, bu qaydanın tətbiqi insanların dərman preparatlarına əlçatanlığı üçün çox faydalı olacaq: "Xəstəliklər çox, dərmanlar bahadır. Bir xəstəlik üçün adətən davamlı müalicələr tələb olunur. İnsanların əksəriyyəti baha olduğu üçün bu müalicələri davam etdirə bilmir. Çünki kifayət qədər xərc tələb olunur. Dərmanların ƏDV-dən azad olması qiymətlərdə kifayət qədər fərq yaradacaq. Bu qərarın tətbiqi və davamı olaraq idxal olunan bütün dərman preparatlarının ƏDV-dən azad edilməsinin faydalı və lazımlı olduğunu düşünürəm".



İlqar Hüseynli

# UCUZDURSA, DEMƏLİ, KEYFİYYƏTSİZDİR

Bazarlarda spirt bahadırsa, hər il aksiz vergisi artırılırsa, arağın ucuz satılması mümkün deyil. Ekspertlər hesab edirlər ki, 10-12 manatdan ucuz satılan araqlar keyfiyyətsizdir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Spirtli içkilərin qiyməti məsələsi yenidən gündəmdədir. Milli Məclisdə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanuna təklif edilən dəyişikliyin müzakirəsində komitənin sədri Azər Əmiraslanov deyib ki, bazarda litri bir manata olan araqlar var. Amma hazırda bir litr arağın aksiz vergisi 4 manat 18 qəpikdir. Bu qiymətdən aşağı olan məhsullar keyfiyyətsizdir. Keyfiyyətsiz məhsul istehsal edən sahibkar bazardan çıxarılmalıdır: "Qanun qəbul ediləndən sonra minimum qiymətin müəyyən edilməsi qaydası hazırlanacaq. İnzibati Xətalar Məcəlləsində bu qanunu pozanlar üçün çox yüksək məbləğdə sanksiyalar nəzərdə tutulacaq. Minimum qiymət artımı spirtli içkilərin bahalaşmasına səbəb ola bilər".

### "BAZARDA KEYFİYYƏTSİZ ARAQLAR KİFAYƏT QƏDƏRDİR"

Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun dosenti, texnika üzrə fəlsəfə doktoru Teymur Musayevin sözlərinə görə, araqların ucuz olmasına təsir edən amillər mövcuddur: "Ucuz araqlar əsasən kiçik sexlərdə istehsal olunur. Bazarda keyfiyyətsiz araqlar da kifayət qədərdir. Spirtin litrinin qiyməti 3-3.50 manat arasında dəyişir. ƏDV və aksiz vergilərini də üzərinə əlavə etdikdə 10-12 manata başa gəlir. Bir litr spirtdən də 2,4 litr araq alınır. Digər xərcləri də əlavə etdikdə məhsulun maya dəyəri yüksəlir. Əgər məhsul 10 manata hazırlanır, amma yeddi manata satılırsa, deməli, keyfiyyətsiz spirtdən hazırlanır. Kömürdən keçmir, ucuz filtrlərdən istifadə olunur".

T.Musayevin fikrincə, arağın keyfiyyətinə xammal da təsir edir: "Buğdadan və şəkər çuğundurundan hazırlanan spirtlər mövcuddur. Buğda spirti daha keyfiyyətlidir. Digərini içdikdə insan keyfiyyətsiz olduğunu hiss edir".

### QİYMƏT QALXSA DA, TƏLƏBATA TƏSİR ETMƏYƏCƏK

Mütəxəssis bu sahə ilə bağlı görülməli işlərə də toxundu: "Buğdadan çəkilən milli spirtimiz Rusiya və Ukrayna spirtindən də keyfiyyətlidir. Onu inkişaf etdirsək, bazardakı qiymətlərə də təsir etmiş olarıq. Həmçinin əldə etdiyimiz gəlir də daxili bazarımızda qalar. Əgər məhsul keyfiyyətsizdirsə, vətəndaş ona ikinci dəfə üz tutmur. Qiymətin artırılmasının tələbata təsir edəcəyini düşünmürəm. Zənn etmirəm ki, arağın qiyməti qalxsa, onun çeşidi və keyfiyyəti də yüksələcək. Sadəcə, bəzi müəssisələr var ki, onlar sertifikatlaşdırılmalı və dövlət nəzarətində olmalıdır ki, keyfiyyətsiz araq istehsal etməsinlər".




## KEYFİYYƏTLİ ARAQ UCUZ OLA BİLMƏZ

Araq və spirtli içkilər üzrə mütəxəssis Tamella Baxşəliyeva isə bildirir ki, hazırda bu sahədə nəzarət güclü olduğu üçün qanunsuzluqlar baş vermir: "Arağın tərkibi, əsasən su və spirtdən ibarətdir. 40 faiz spirt, 60 faiz sudan istifadə olunur. Bunlar hər ikisi keyfiyyətli olmalıdır. Üstəlik, onların emalında bir çox avadanlıqlardan istifadə edilir. Aksiz vergisini də rəsmi şəkildə vermək lazımdır. Belə olduqda araq ucuz ola bilməz. Hazırda minimum qiymət qoyulması mümkün deyil. Monitorinqlər aparılır. Satıcılar da o riskə getmirlər".

T.Baxşəliyevanın sözlərinə görə, hər bir məhsulun alıcısı var. Belə olan halda hansısa məhsul "ucuzdur və ya keyfiyyətsizdir" deyib bazardan kənarlaşdırmaq olmaz: "Keyfiyyətli araq ucuz ola bilməz. Kiçik, keyfiyyətsiz hesab etdiyiniz araqların da özlərinə görə aksiz vergisi var. Onların da hər biri keyfiyyətsiz deyil. Məsələn, arağın yandırmasını keyfiyyətsiz hesab edirlər. Amma elə insanlar var ki, onlar arağı bu şəkildə sevirlər. Hər kəs istədiyi məhsulu ucuz və ya baha əldə edə bilər. Tələbat varsa, məhsulun bazardan çıxarılması düzgün deyil".

## KEYFİYYƏTSİZ ARAQLAR DAHA BAHA SATILACAQ?

İqtisadçı Xalid Kərimli isə dedi ki, bu məsələ ilə bağlı dünyada da qaydalar mövcuddur: "Şotlandiya və Böyük Britaniyanı misal göstərmək olar. Onlarda hesab olunur ki, alkoqol səhhətə ziyandır. Hətta keyfiyyətli alkoqolun da istehsalının aşağı salınması nəzərdə tutulur. Bunu, əsasən araq istehsalçılarının mənafeyini qorumaq üçün edirlər ki, qiymət rəqabəti aparmaq mümkün olsun".

İqtisadçının sözlərinə görə, bu addımla keyfiyyəti tənzimləmək mümkün olmasa da, tələbatı az da olsa azaltmaq mümkündür: "Bu qərarı qəbul etməkdə əsas məqsəd bazara keyfiyyətsiz içki məhsullarının daxil olmasının qarşısının alınmasıdır. Əhaliyə göstərmək istəyirlər ki, bu qiymətdən aşağıdırsa, deməli, keyfiyyətsizdir. Amma qiymətin müəyyən hissəsi də aksiz vergisidir. Aksizdən yayınmanın qarşısının alınmasının, yaxud keyfiyyətin yoxlanılmasının başqa yolları tapılmalıdır. Aksiz vergisi onsuz da hər il arağın litrinə görə qaldırılır. Hazırki şəraitdə qiymətlərin qaldırılmasını doğru hesab etmirəm. Qiyməti bazar tənzimləməlidir. Qiymətin yüksəldilməsi rəqabətə də mənfi təsir göstərir. Arağın qiymətini qaldırmaqla keyfiyyətinin yüksələcəyini zənn etmək yanlışdır. Keyfiyyətin yaxşılaşdırılması üçün nəzarətin gücləndirilməsi kifayətdir. Ola bilər ki, bu qərardan sonra keyfiyyətsiz araqlar daha baha qiymətə satılacaq. Amma hər bir halda qiymətin artması alkoqollu içkilərə tələbatın aşağı düşməsi üçün düzgün addımdır. Qiymət qaldırılanda tələbat aşağı düşür".



Teymur Musayev



Xalid Kərimli

# MAKSİMUM DİQQƏT TƏLƏB EDƏN İSLAHAT

Ekspertlər hesab edirlər ki, ali təhsil müəssisələrində ixtisaslarla bağlı islahatlar kor-koranə aparılmamalıdır. Bu istiqamətdə ciddi müzakirə, təhlil və araşdırmalara ehtiyac var.





TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Müasir dünyada hər şey sürətlə dəyişir. Bu, həyatın bütün sahələrinə aiddir və təhsil də istisna deyil. Yeni texnologiyalar və tədris metodları həsəd aparılacaq qanunauyğunluqla ortaya çıxır. Bir neçə il əvvəl aktual olan şey bu gün köhnəlmiş ola bilər. Dövlətin təhsil sahəsində siyasəti də daim dəyişir. Yeni standartlar, təlim proqramları, sertifikatlaşdırma tələbləri və s. tətbiq edilir. Universitetlərdə tədris olunan yeni ixtisaslar da bu dəyişikliklərdən kənarda qalmır. Ali təhsil müəssisələrində bakalavr, rezidentura və magistratura pillələrində gələcək ali təhsilli kadrların hazırlanması üzrə yeni proqramların tətbiqi həyata keçirilir. Hesab edilir ki, əgər əvvəllər dünyanın daha çox hüquqşünaslara, mühasiblərə və s. ehtiyacı var idisə, indi bazarda vəziyyət dəyişib. Bəzi peşələr robototexnika ilə əvəz edilir, onların inkişafı və tətbiqi üçün də təlim keçmiş kadrlar tələb olunur. İndi hamımız başqa texnoloji struktura rahat keçid edirik. Hər il yeni ixtisaslar, əmək fəaliyyəti növləri və müvafiq iş yerləri yaranır. Robot texnikası və həyat elmlərində sürətli inkişaf var. Bir sözlə, artıq ali təhsil ənənə və fundamental biliklərlə yanaşı, əmək bazarının ehtiyaclarına meyl edir.



Ceyhun Məmmədov

"Ali təhsil müəssisələrində tədris olunan ixtisaslarla bağlı əsaslı islahatlara ehtiyac var və buna mütəmadi olaraq baxılmalıdır", - deyən elm və təhsil naziri Emin Əmrullayev də yeni əmək bazarının tələbini xatırladıb.

Nazir hökumətə təqdim olunan bakalavr və magistr üzrə ixtisasların yeni təsnifat layihəsinin texniki xarakterli olduğunu qeyd edib: "Əslində bu, indiki mərhələdə texniki dəyişikliklərdir. İkili diplomlar həyata keçirilir, ayrı-ayrı ölkələrdə ixtisaslar fərqli olduğu üçün qanunvericiliyə uyğunlaşdırma lazımdır".

Təbii ki, ali təhsil müəssisələrində ixtisaslarla bağlı islahatlar, yeni ixtisasların müəyyən olunması, təhsil proqramlarının yenilənməsi və s. kor-koranə edilməməlidir. Bu istiqamətdə ciddi müzakirə, təhlil və araşdırmalara ehtiyac var.

Təhsil sahəsi üzrə ekspertlər və mütəxəssislər də məsələyə birmənalı yanaşmırlar.

## "TƏHSİLDƏ O QƏDƏR PROBLEMLƏR VAR Kİ..."

Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov hesab edir ki, təhsildə kortəbii islahatlar aparmaqdan çəkinmək lazımdır: "Təhsil elə sahədir ki, burada çoxlu eksperiment aparmaq yalnız zərər vura bilər. O mənada da ali təhsil müəssisələrində ixtisaslarla bağlı dəyişikliklərdə diqqətli olmalıyıq. Yəni söhbət ondan gedir ki, hansısa bir fənnin ixtisar olunması şəxsi mülahizə əsasında olmalı deyil. Təhsildə o qədər problemlər var ki... Niyə nazirlik bu islahatlara fənlərin ixtisarından başlamaq istəyir? Düşünürəm ki, burada ciddi müzakirə, təhlil və araşdırmalara ehtiyac var".

Millət vəkilinin fikrincə, bu prosesdə tələsik addımlar atmaq bizim üçün ciddi problemlər yarada bilər: "Biz bu məsələdə maksimim diqqətli olmalıyıq ki, gələcəkdə əziyyət çəkməyək. Mən hansısa bir fənnin çıxarılmasının tərəfdarı deyiləm, əksinə, düşünürəm ki, bəzi yeni fənləri daxil etməli və daha çox fənni gənclərə öyrətməliyik".

## ZAMANLA İXTİSASLARIN ƏLAQƏSİ

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, Bakı Dövlət Universitetinin professoru Hikmət Əlizadənin fikrincə, elm və təhsil naziri məsələyə düzgün yanaşır: "Bütün dövrlərdə bu, belə olub. Zaman kontekstində ixtisaslar həm yenilənib, həm də məzmunca təkmilləşib. İndi zaman daha sürətli inkişafa şahidlik edir, dünya sürətlə dəyişir. Bu inkişaf axarında təbii ki, ixtisasların yenilənməsi tələbə çevrilir. Artıq bir çox yeni ixtisaslar "vətəndaşlıq hüququ" əldə edib. Bununla belə, hazırda müxtəlif proqnozlar olsa da, hansı yeni ixtisasların aktuallaşacağını müəyyən etmək çətindir. Bu taleyüklü məsələ olduğu üçün xüsusi müzakirələrin aparılmasını tələb edir. Xarici ölkələrin təcrübəsinin öyrənilməsi də məqsədəuyğun ola bilər".



Hikmət Əlizadə

## "MARAQLI TƏRƏFLƏR MÜZAKİRƏYƏ CƏLB OLUNMALIDIRLAR"

Təhsil eksperti Nadir İsrafilov hesab edir ki, ixtisaslarla bağlı islahat təklifi subyektiv fikirlə əmələ gələn məsələ yox, ümumi müzakirəyə ehtiyacı olan məsələdir: "Ali məktəb rektorları, müəllim heyəti, tələbələrlə sorğu keçirilməlidir. İslahat proqramında bu məsələ qoyulub: təhsil sahəsində qəbul olunan bütün qərarlarda ictimai rəyin öyrənilməsi və o qaydalar üzərində ictimai nəzarətin təşkil olunması. Maraqlı tərəflər müzakirəyə cəlb olunmalıdırlar. Təəssüf ki, bizdə ümumi ictimai rəyə diqqət yetirilmir. Təhsil ümummilli məsələdir. Bu sahədə bütün ictimaiyyətin fikri öyrənilməlidir".

N.İsrafilov "Ali məktəblərdə müəyyən ixtisaslar artıqdır" fikrini qəbul edir: "Amma biz bir növ orta məktəbin vəzifəsini ali məktəbin, ali məktəbin vəzifəsini orta məktəbin üzərinə yükləmişik. İndi elə çıxır ki, sanki orta məktəblər ali məktəblərə fənlər üzrə tələbə hazırlayır, ixtisaslaşma gedir. Ali məktəblərdə əsas diqqət ixtisas fənlərinə verilməlidir".



Təhsil ekspertinin fikrincə, indi daha çox diqqət təhsil sahəsində hazırkı problemlərin həllinə yönəlməlidir: "Aidiyyəti olmayan adamların dərsliklər yazması, tədris planlarının yüklü olması və s. kimi problemlər var.

Biz tədris planının yükdən azad edilməsi üçün nəsə etmişik? Bunu rəsmilər özləri də etiraf edir, problemlər hər il sadalanır. Amma problemi qaldırmaq şərt deyil, onu həll etmək lazımdır. Təbiət fənlərini - fizika-kimya-biologiya fənlərini bilrəşdirib, fənlərin inteqrasiyasını yaradırıq. Bu fənlər hamısı ayrılıqda elm sahələridir. Bunları birləşdirib guya Sinqapur modelini yaradırıq. Məgər hansı ölkədə nəsə varsa biz onun surətini çıxarmalıyıq? Tutaq ki, bu fənni tədris proqramına daxil etdik, bunu hansı fənn müəllimi tədris edəcək? İndi gözləyək ki, təlim kursları təşkil olunacaq, o müəllimlər kursu keçəcək və fənni tədris edəcəklər? Nazir islahatlarla bağlı məsələni yaxşı irəli sürür. Amma bu islahatlara zamanla gəlmək lazımdır".

# KOMBİMİZİN ÖMRÜNÜ UZATMAQ İSTƏYİRİKSƏ...

Soyuq havalarda xilasedicimiz əsasən kombilərdir. Havalar bir az soyuyan kimi hamılıqla ona müraciət edirik. Bəs kombilər haqqında nələri bilməliyik? Mütəxəssislər vacib olan məqamlara aydınlıq gətirirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Havalar yavaş-yavaş soyuyur. Kombi mövsümü gəlir. Artıq evlərində kombini işə salanlar da var. Bəs bu cihazlar haqqında nələri bilməliyik? Onlara necə qulluq etməliyik? Kombini işə salmazdan öncə etməli olduğumuz hansı vacib məqamlar var?

### ESENJORLU VƏ MİS BORULU KOMBİLƏR

Kombi satışı ilə məşğul olan Sənan Məhərrəmov bu cihazları alarkən diqqət edilməli məqamları açıqladı: "İnsanlar kombi alarkən esenjoruna diqqət etsinlər. Daxili boruları mis olsa, daha yaxşıdır. Çünki bəzən adi su boruları olur. Təzyiq çox olan zaman, su qızdıqca borular genişlənir və sıradan çıxır. Mis borular isə daha davamlıdır. Dövriyyə motorları daha böyük olan kombilər qaza daha çox qənaət edir. Çünki dövriyyəsi tez getdiyi, motoru güclü olduğu üçün kombi 55 dərəcədə 35 dərəcə dövriyyə ilə hərəkət edir. Amma motor balaca olanda 55 dərəcə ilə çıxan su 25 dərəcə ilə geri qayıdır. Kombilərin qiymətinə gəlincə, hazırda bazarda 650 manatdan 2600 manata qədər olan təkliflər var".

### "ORİJİNAL 15 İL, UCUZ OLANLAR 5-6 İL İŞLƏYİR"

Kombi ustası Kamil Əliyevin sözlərinə görə isə kombilərin qiyməti onların keyfiyyətinə görə dəyişir: "İkinci əl kombi işlədən insanlar da var. İşlənməmiş kombilər 1100-1200 manatdırsa, ikinci əl kombi onun yarı qiymətinədir. 1200 manatlıq kombini 400 manata da tapmaq mümkündür. İkinci əl kombinin əgər bütün detalları normal çalışırsa, heç bir təhlükəsi yoxdur. Ucuz kombilər keyfiyyət cəhətdən daha aşağı olur. Məsələn, elə orijinal kombi var ki, 15 il problemsiz işləyir. Amma ucuz olanlar 5-6 ildən sonra xarab olmağa başlayırlar. Ucuz kombilərin daha az qaz sərf etdiyi deyilir. Amma elə deyil. Çünki bütün detallar, funksiyalar eynidir. Ancaq elə kombi olur ki, aşağı təzyiqlə də işləyə bilir".

Ustanın fikrincə, kombi tez-tez xarab olursa, hər dəfə usta çağırmaq əvəzinə, dəyişmək daha münasibdir: "Hər detalın istifadə müddəti var. Artıq xarab olduqda dəyişilməlidir. Konkret "kombi bu qiymətə təmir olunur" demək çətindir. Təmir xərci 30-40 manat da ola bilər, 200-300 manat da. Bu, daha çox hansı detalın sıradan çıxmasından asılıdır. Kombi 10 il heç bir problemsiz işləyə bilər. Amma tez-tez xarab olmağa başladısa, köhnəlmiş hesab olunur. O halda yenisini almaq daha məsləhətlidir. Bəzən yeni kombi alanda 40-50 litr antifriz tökürlər. Bu zaman kombinin ömrü daha da uzanır. Çünki paslanma vermir. Amma yalnız yeni sistem olmalıdır".

### "ELƏ ADAMLAR VAR Kİ, KOMBİSİNİ 10 İLDİR YUMUR"

K.Əliyev bildirdi ki, kombini ildə bir dəfə yumaq lazımdır: "Çünki suyun ərpindən asılı olaraq daşlaşa bilər. Qışda yumaq o qədər də əlverişli deyil. Kombi bütün qışı işlədikdən sonra onu aparat vasitəsilə və dərmanla yumalıyıq. Təzyiqini də vurduqdan sonra gələn qış mövsümü üçün hazır vəziyyətə gətiririk. Amma bizdə kombilər ildə bir dəfə yuyulmur. Ən tez üç ildə bir dəfə yuduzdururlar. Sonra tutulmalar baş verir, radiatorda dövriyyə kəsilir. İçindəki dövriyyə nasosu tutulur, su qatılaşır, çirklənir. Hətta elə adamlar var ki, kombisini 10 ildir yumur və hazırda aparat işləmir. İşləməsi üçün ona xidmət olunmalıdır. Kombinin yuyulma prosesini aparat olmadan insanlar özü edə bilməz. Yalnız kombinin içindəki suyu boşaldaraq yeni su doldura bilərlər. Yuyulma sistemi ən çox radiatorlar üçün vacibdir. Onların içində maksimum üç litr su var. Çünki su ötürücülər çox nazikdir. Uzun müddət yuyulmadıqda onlar tutulurlar. Beləliklə, radiator normal qızdıra bilmir".




## KOMBİ AĞILLI CİHAZDIR

Müsahibimiz kombinin saxlanma şəraitindən də danışdı: "Kombini balkonda şkafda saxlamaq lazımdır. Çünki bu cihazlar çöldəki tozdan da xarab ola bilir. Kombi söndükdə, əgər hava şaxtalı olarsa, içində su donur, belə olan halda bəzi detallar partlayır. Bu səbəbdən qapalı yerdə olması daha yaxşıdır. Kombinin yeri quru olmalı, nəm çəkməməli, ora yağış düşməməlidir".

Mütəxəssisin fikrincə, kombidə təhlükə azdır: "Çünki ağıllı cihazdır. Hər hansı bir problem baş verdikdə özü avtomatik olaraq sönür. Boruları da çöldə yerləşdiyi üçün təhlükəsizdir. Kombidə hava çatışmazlığı, zəhərli qaz olsa, avtomatik özünü bloklayır. Kombi heç vaxt qaz buraxmır. Sızıntı olsa dərhal sönür".

## KOMBİNİ TEZ-TEZ SÖNDÜRMƏK OLMAZ

K.Əliyevin sözlərinə görə, bəzən insanlar kombini hər gün söndürüb yandırırlar. Amma bu, düzgün deyil. Kombini tez-tez söndürmək olmaz: "Sadəcə, evdə olmadıqda dərəcəsini azaltmaq olar. İnsanlar elə bilir ki, bununla qənaət etmiş olurlar. Amma əslində soyuyan evin yenidən qızması daha böyük enerji tələb edir. Çalışsınlar, evin temperaturunu hər zaman qoruyub saxlasınlar. Ən doğru variant kombinin qış boyu davamlı yanmasıdır. Kombini qoşduqda yalnız təzyiqinə baxmaq lazımdır. Təzyiq 1,5-2 arasında olmalıdır. Əgər təzyiq aşağı düşərsə, cihaz avtomatik özünü söndürür".

### "SUYU İLIQ ETMƏK İSTƏYİRİK, AMMA SOYUYUR"

Usta vətən-daşların kombi ilə bağlı ən çox şikayət etdiyi mövzuya da aydınlıq gətirdi: "Yay rejimində kombini söndürürlər. İşlətmədikdə radiatoru bağlamaq olar. Dövriyyəni kəsməyin kombi üçün heç bir mənfi tərəfi yoxdur. Yalnız isti və soyuq su üçün istifadə edirsən. Bəzən insanlar yay rejimində suyun tez-tez soyumasından şikayət edirlər. Amma onun işləmə mexanizmini bilmirlər. Su qaynar gəldikdə soyuq suya doğru çevirirlər. Lakin belə olduqda təzyiq azalır və kombinin içərisində qaynama prosesi baş verir. Qaynama olduqda kombi avtomatik sönür və su soyuyur. Bu hal baş verməməsi üçün temperaturu kombi üzərindən nizamlamaq lazımdır. Suqızdırıcı cihazlardakı kimi tənzimləmək olmaz. Krant yalnız bir istiqamətdə işləməlidir".



Üç əsrin qəzeti Kaspi



# “SEVGİSİZ QALMAQDAN QORXURAM”

**Murad İsmayıl:** “İncəsənətlə məşğul olmasaydım, hansısa məşhur restoranlardan biri mənim olardı. Çünki yemək bişirmək və restoran işinə böyük marağım var”.




Fotolar: Rüfət Mikayılov - Global Photostock

Özünəməxsus repertuarı olan Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının maraqlı aktyorları var. Onlardan biri - həm aktyor, həm də müğənni kimi tanınmış Murad İsmayılla söhbətləşdik.

● **Sizdə incəsənətə meyl haradan başladı?**

● Uşaqlıqdan musiqiyə böyük həvəsim olub. Anamın təkidi ilə musiqi məktəbində qarmon sinfində oxusam da, skripka, pianonu daha çox sevirdim. Orada mənə yeganə doğma olan xor dərsi idi ki, oxuyurdum. Şuluq uşaq idim, həmişə danlanırdım. Amma elə o vaxtdan fərqləndiyimi hiss edirdim. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin musiqili teatr aktyoru fakültəsinə qəbul oldum ki, burada səsin olmağı çox vacibdir. Səs imkanlarımın olması mənə Musiqili Teatrda işləməyimə imkan versə də, daha çox drama meyilli idim. Tələbə ola-ola “Azdrama”da aktyor studiyasının üzvü idim. Orada Pərviz Məmmədrzayev, Vidadi Həsənov, Məmməd Səfa müəllimdən dərs almışam. Məni ilk dəfə tamaşada səhnəyə çıxardan Xalq artisti Bəsti Cəfərova olub. Onun ilk rejissor işi olan “Nağıllar aləminə səyahət” tamaşasında rol almışam. “Azdrama”dan sonra Xalq artisti Fuad Poladovla “Müsyo İbrahim və Quran çiçəyi” tamaşasına təsdiqləndim. Universiteti bitirəndən sonra Rus Dram Teatrına gəldim və elə o vaxtdan buradayam. “Azdrama”dan sonra burada işləmək mənə bir qədər çətin oldu. Sanki burada yenidən sıfırdan başladım. Tədricən orta rollarda, bir neçə də baş rolda oynayıram.

**“İBLİS VƏ...”NİN ARİFİ**

● **İllərdən sonra “Azdrama” səhnəsinə Ariflə gəldiniz...**

● Mehriban Ələkbərzadənin quruluşunda “İblis və...” tamaşasında Arif roluna dəvət aldım. Məşq üçün çox az vaxt qalmışdı və mən bu rolu canlandırmaq üçün əlimdən gələni etdim. Bu rol üzərində Mehriban xanımın əziyyəti böyükdür. Əgər obraz alınıbsa, bu, məhz onun fədakar əməyinin sayəsindədir. O səhnədə yenidən oynamaq bir başqa hiss idi həm də...

● **Hansı rollar sizin üçün maraqlıdır?**

● Düzü, müsbət obrazlardan yorulmuşam. Mənfi obrazlara meylim daha çoxdur. Çünki onlar üzərində iş çoxdur. “Aydın” tamaşasında Dövlət bəy obrazımı sevirəm. Çoxları inanmırdı ki, mən mənfi obrazı canlandıra bilərəm. Amma özümə inanırdım. Xalq artisti, mərhum rejissorumuz İranə Tağızadə mənə bu inamı vermişdi. Onun zəhməti nəticəsində mən o rolun öhdəsindən gələ bildim. Əməkdar artist Firdovsi Atakişiyevin də dəstəyini xüsusi vurğulamaq istəyirəm.

● **Səhnə, yoxsa çəkiliş meydançası?**

● İkisi də mənə doğmadır. Hər ikisinin özünə görə çətinliyi, asanlığı, doğmalığı var. Mən səhnədə özümə çox əminəm, özgüvənim yüksəkdir. Kamera qarşısında da sərbəstəm və rahat işləyə bilirəm. Çox vaxt seriallarda çəkilirəm. Onun da öz çətinlikləri var. Bizdəki şəraitdə serial işində çalışanlara halaldır. Kiçik imkanlarla böyük işlər görürlər. Türk serialları ilə müqayisə isə ən gülməlisidir. Orada bir seriyaya ayrılan vəsait bizim az qala bütün mövsüm üçün ayrılan vəsait qədərdir. Adamlar kiçik nüansları bilmir, ona görə də bəzən çox sərt tənqid edirlər. Həyatda bəzi reallıqlar var, biz onları qəbul etməliyik.

**“UŞAQLAR ƏN YAXŞI TAMAŞAÇIDIR”**

● **Səhnədə yaratdığınız obrazın alındığını nədən bilirsiniz?**

● Birincisi, öz içində bilirsən bunu. İkincisi, səmimi alqışlardan. Üçüncüsü də ətrafdakı insanlardan. Hər kəsin fikrini dinləyirəm. Lap elə başqa sahənin adamlarını da. Bəzən yad sahədən olan adam elə bir məsləhət görür ki, heç peşəkar onu görmür.

● **Tamaşada zaldan enerji ala bilirsiniz?**

● Zaldan kimsə mənə mənfi enerji də ötürə bilər, müsbət də. Mən bu baxışlardan çəkinmirəm. Baxışlar məni çaşdırmır. Amma ən möhtəşəm enerjini uşaq tamaşa-larında almışam. Uşaqlar ən yaxşı tamaşaçıdır, onları aldatmaq olmur. Gərək elə oynayasan ki, uşaqlar sənə inansınlar. Uşaqların sevinci, alqışı, təbəssümünün ötürdüyü enerji ən gözəlidir.



## “TÜRK POP MUSİQİSİNİ ÇOX DİNLƏYİRƏM”

● **Murad İsmayıl yaradıcılıqda daha nə istəyir?**

● Hər bir aktyor, hər bir müğənni kimi ən yaxşı layihələrdə iştirak etmək istəyərəm. Arzum budur ki, dövlətimi xarici ölkələrdə təmsil edim.

● **Müğənni kimi hansı yeniliklər var?**

● Rusiyadan bizim bir soydaşımız mənə rus dilində mahnı hədiyyə edib. Bu mahnı aranjeman olunur, tezliklə klip çəkiləcək və həm Azərbaycan, həm də Rusiya platformalarında yayımlanacaq. Mahnının uğur qazanacağına inanıram.

● **Ümidli adamsız?**

● Çox ümidli adamam. Buraya qədər öz gücümə gəlmişəm. Bundan sonra da hədəfimə doğru gedəcəyimə inanıram. Özümü ən yuxarılarda görmək arzusu ilə çabalayıram.

● **Özünüzü rejissor kimi sınamaq ağlınızdan keçib?**

● Mənim kənardan görmək qabiliyyətim yaxşıdır. Amma rejissor işi çox çətindir. Aktyor bir öz öhdəsinə düşəni fikirləşir, rejissor isə hamının əvəzinə.

● **Hansı müğənnilər ürəyinizə yol tapıb?**

● Azər Zeynalov, Polad Bülbüloğlu, Müslüm Maqomayev, Akif İslamzadəni dinləməyi çox sevirəm. Türk pop musiqisini çox dinləyirəm.

● **Murad İsmayıl nədən qorxur?**

● Mən sevgisiz qalmaqdan, tələbatlı olamamaqdan, diqqətdən kənarda qalmaqdan qorxuram. Özümü dəyərsiz, gərəksiz hiss etdirəcək həyatım olsun istəmərəm. Deyirlər, xanımların diqqətə ehtiyacı var, xeyr, elə kişilərin də diqqətə ehtiyacı böyükdür. Sənət adamlarının isə bu diqqətə və qayğıya xüsusi ehtiyacı var. Bizi bu yaşadır. Qocalsam da sevilən, yaddaqalan, tələbatlı aktyor olmaq istəyirəm. Özümdən sonra izim qalsın istəyirəm.

● **Bəs yaradıcılıqdan başqa nə arzunuz var?**

● Düşünürəm ki, incəsənətlə məşğul olmasaydım, hansısa məşhur restoranlardan biri mənim olardı. Çünki yemək bişirmək və restoran işinə böyük marağım var.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
2 NOYABR ... 2024
www.kas...



## Müzakirələrə səbəb olan seçim

Bu il "Qızıl Top"a namizədlər arasında əsas rəqabət Rodri ilə "Real Madrid"in və Braziliya yığmasının vingeri Vinisius Junior arasında gedirdi. Hər iki futbolçu mövsüm boyunca yüksək səviyyəli performans nümayiş etdirdilər. Yekunda Rodri qalib seçildi, Vinisius isə ikinci yeri tutdu. İlk "üçlüy"ü Madridin digər gənc ulduzu Cud Bellinqem tamamladı. Dördüncü sırada "kral klubu"nun daha bir oyunçusu Dani Karvaxal yer aldı. Beşinci yer Rodrinin komanda yoldaşı Erlinq Holanda qismət oldu. Yekun sıralama "Real Madrid" cəbhəsində məyusluğa səbəb oldu və hətta klub mükafatlandırma mərasimini boykot edərək öz etirazını bildirdi. Çünki onların fikrincə, Vinisius mükafata daha çox layiq idi. "Qızıl top"un sahibinin seçilməsi zamanı hansı meyarların əsas götürülməsinin aydın olmaması müzakirələri kəskinləşdirən əsas amildir. Vinisius fərdi performansı ilə diqqətləri cəlb edərkən, Rodri kollektiv oyun və qazandığı titullarla önə çıxdı. Hətta bəzi mütəxəssislər bu mükafatın Dani Karvaxala verilməli olduğunu da iddia edirdilər, çünki o, həm ÇL-in qalibi olmuş, həm də Rodri kimi Avropa çempionluğunu qazanmışdı."Real Madrid" azarkeşləri və klub rəhbərliyi UEFA ilə aralarında olan gərginliyin seçimlərə təsir göstərdiyini iddia edirlər. Onların fikrincə, Super Liqa layihəsi ilə bağlı çəkişmələr "Qızıl Top" seçimində də nəzərə alınıb. Bu iddiaları gücləndirən məqamlardan biri də mükafatlandırma mərasiminin təşkilati işlərində "France Football" ilə birgə UEFA-nın da iştirak etməsidir.

Rodri ötən mövsüm "Mançester Siti"nin uğurlarında əhəmiyyətli pay sahibi idi. İngiltərə Premyer Liqasında komandasının çempionluq qazanmasında böyük payı olan yarımmüdafiəçi təkcə müdafiə keyfiyyətləri ilə deyil, həm də hücumda effektivliyi ilə fərqləndi.

# Təvazökar, amma güclü lider

1956-cı ildən etibarən təqdim edilən və futbol dünyasının ən prestijli fərdi mükafatı olan "Ballon d'Or" – "Qızıl Top" növbəti dəfə sahibini tapdı. Artıq 68-ci dəfə təqdim edilən bu mükafat "Mançester Siti" və İspaniya millisinin yarımmüdafiəçisi Rodriyə qismət oldu. 2023/24 mövsümünün və ötən yayın daxil olduğu periodun ən yaxşısı olaraq seçilən Rodri meydanda taktiki zəkası, soyuqqanlı oyunu və komandaya misilsiz dəstəyi ilə futbol tarixində yeni bir iz buraxdı. Rodri ötən mövsüm "Mançester Siti"nin uğurlarında əhəmiyyətli pay sahibi idi. İngiltərə Premyer Liqasında komandasının çempionluq qazanmasında böyük payı olan yarımmüdafiəçi təkcə müdafiə keyfiyyətləri ilə deyil, həm də hücumda effektivliyi ilə fərqləndi. O, 34 qarşılaşmada səkkiz qol və doqquz məhsuldar ötürmə ilə yadda qaldı. UEFA Super Kubokunu qazanan Ropdrinin komandası ÇL-də 1/4 final oynadı. Lakin bu turnir tarixinin şəriksiz ən güclüsü "Real Madrid" kimi rəqiblə üz-üzə qalmaq bəzən hətta ən yaxşılar üçün də nəticənin başqa cür bitməsinə səbəb ola bilir. Nəticədə Rodrili "şəhərlilər" gələcək çempionla mübarizədə dayanmalı oldular.




### YAY AYLARININ TRİUMFU

Rodrinin ən parlaq dövrü bu ilin yay aylarında İspaniya millisi ilə Avropa çempionluğunu qazanması oldu. Rodri Luis de la Fuentenin rəhbərliyində formalaşan yığmanın əsas simalarından idi. O, hər matçda sanki meydanın sahiblərindən biri oldu və müdafiə planındakı effektiv çıxışı, ağıllı ötürmələri sayəsində oyunun gedişatına istiqamət verməsi ilə fərqləndi.

Beləliklə o, İspaniya millisinin yekun qələbəsində mühüm rol oynadı. Rodrinin Avropa çempionluğuna nail olması onun dəyərini daha da artırdı. Yay aylarında transfer bazarında qiyməti 90 milyon avrodan 130 milyon avroya yüksəldi və İspaniya futbol tarixində ən dəyərli oyunçulardan biri oldu. Bu, sıradan bir nəticə deyil, əslində Rodrinin oyun əhəmiyyətinin nə dərəcədə böyük olduğunu bir daha göstərdi.




## Heç bir seçim hamını razı sala bilməz

Ümumiyyətlə, seçim əsaslı mükafatlandırmalarda heç də hər kəsin razı qalmadığı çoxdan məlum olan faktdır. Rodrini, Vinisiusu, hətta Karvaxalı daha layiq hesab edənlərin hər birinin haqlı arqumentləri var. Lakin Vinisiusun Braziliya millisi ilə Amerika Kubokunda uğursuzluğa düçar olması, Karvahalın İspaniya yığmasında və ya "Real Madrid"də əsas lider olmaması kimi əks-arqumentlər də irəli sürülə bilər. Bəlkə də builki mükafat futbolda uzun müddətdir sürən fərdi bacarıq ilə kollektiv zəfər arasında olan gərginliyi göstərən bir simvol olaraq qalacaq. Amma hər nə olursa-olsun, Rodri artıq futbol dünyasının "Qızıl Top"u ilə taclandırılan əbədi qalibləri sırasına qoşuldu və bu, onun gələcəkdə xatırlanacaq ən böyük uğurudur.